QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 200 (5920) **30 oktyabr** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# "İndi bizim 3 peykimiz var və Azərbaycanda kosmik sənaye inkişaf edir"

*Prezident İlham Əliyev "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin sədrini qəbul edib*

Səh 2



3

**Budimir Lonçar: "Qoşulmama Hərəkatının Bakı Sammiti çox yüksək səviyyədə təşkil olunub"**



6

**Vüsal Qasımlı: "Azərbaycan qlobal istedad rəqabətliliyi indeksində MDB-də liderdir"**



7

**"Bu iddialar dövlətimizin media siyasətini gözdən salmaq məqsədi daşıyır"**



# "İndi bizim 3 peykimiz var və Azərbaycanda kosmik sənaye inkişaf edir"

*Prezident İlham Əliyev "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin sədrini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 29-da "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin sədri Rəşad Nəbiyevi ABŞ-ın paytaxtı Vaşinqton şəhərində Beynəlxalq Astronavtika Federasiyasının Baş Assambleyasında keçirilmiş seçkilərdə Bakı şəhərinin 2022-ci ildə Beynəlxalq Astronavtika Konqresinə ev sahibliyi etmək hüququ qazanması ilə əlaqədar qəbul edib.***

AZƏRTAC xəbər verir ki, bu qələbənin əhəmiyyətini vurğulayan Prezident İlham ƏLİYEV dedi:

-Bir neçə gün bundan əvvəl Vaşinqtonda keçirilmiş Beynəlxalq Astronavtika Konqresində növbəti Konqresin Azərbaycanda keçirilməsi haqqında qərar qəbul edilmişdir. Bu, çox böyük hadisədir, bizim böyük qələbəmizdir və bu münasibətlə sizi təbrik etmək istəyirəm. Bilirəm ki, "Azərkosmos" və digər dövlət qurumları bu Konqresin Azərbaycanda keçirilməsi üçün böyük səylər göstərmişlər.

Bu Konqres yeni, müasir texnologiyalar sahəsində dünya miqyasında ən mötəbər beynəlxalq tədbirdir. Bu tədbirin əhəmiyyətini sübut edən məqamlardan biri də odur ki, Konqresin işində Amerikanın vitse-prezidenti cənab Pens iştirak etmişdir. Növbəti Konqresin Azərbaycanda keçirilməsi haqqında qərarın dəstəklənməsi əlbəttə ki, ölkəmizin siyasi nüfuzunun təzahürüdür, Azərbaycana olan inamın nəticəsidir. Yadımdadır, bu ilin iyul ayında Beynəlxalq Astronavtika Federasiyasının prezidenti Azərbaycanda səfərdə idi. Mən onu qəbul etmişdim və ona öz niyyətimizi bildirmişdim ki, biz çox istəyirik, növbəti Konqres Bakıda keçirilsin. Çünki biz hesab edirik ki, bu, ədalətli olar. Çünki Azərbaycanda son illər ərzində müasir texnologiyalar, kosmik sənaye sahələrində əldə edilmiş uğurlar doğrudan da çox təsirlidir. Gənc müstəqil ölkə üçün qısa müddət ərzində belə nailiyyətlərin əldə edilməsi böyük hadisədir. İndi bizim 3 peykimiz var və Azərbaycanda kosmik sənaye inkişaf edir. Azərbaycan dünyanın kosmik klubunun məhdud sayda olan üzvlərindən biridir.

Bu qələbə bir daha ona görə önəmlidir ki, bizim çox güclü rəqiblərimiz var idi. Dörd şəhər Konqresin keçirilməsi üçün səy göstərirdi. Bakı ilə yanaşı, Sinqapur, Rio-de-Janeyro və Dehli şəhərləri. Yəni, həm təcrübə, həm də əhali baxımından Hindistanla Braziliya Azərbaycanla müqayisəedilməz səviyyədədir. Ancaq bu mübarizədə qələbə əldə etməyimiz əlbəttə ki, bizim nüfuzumuzdan xəbər verir. Beynəlxalq astronavtika aləmi bu dörd şəhərdən məhz Bakını seçib. Bizə inanırlar, bizim siyasətimizə böyük dəstək göstərilir, Azərbaycanda gedən proseslərə dünya miqyasında böyük rəğbət var. Təkcə bu ayın ərzində həm Türk Şurasına, eyni zamanda, dünyanın BMT-dən sonra ən böyük təşkilatına - Qoşulmama Hərəkatına sədr seçibdir və bu, doğrudan da böyük tarixi nailiyyətdir. Astronavtika Konqresinin 2022-ci ildə Bakıda keçirilməsi növbəti böyük qələbəmizdir. Mən bu hadisəni çox önəmli siyasi qələbə kimi qəbul edirəm.

İctimaiyyətin diqqətini bir məsələyə də cəlb etmək istəyirəm. O da odur ki, 1973-cü ildə Sovet İttifaqı dönəmində Beynəlxalq Astronavtika Konqresi Sovet İttifaqında keçirilmişdir. Cəmi bir dəfə, o da Bakı şəhərində. O vaxt ulu öndər Heydər Əliyev Azərbaycanın rəhbəri kimi böyük səylər göstərmişdir ki, Sovet İttifaqında bu Konqres məhz Bakıda keçirilsin. Hesab edirəm ki, 2022-ci ildə - təxminən 50 ildən sonra müstəqil Azərbaycanda bu Konqresin keçirilməsi böyük rəmzi məna daşıyır. O vaxt biz müstəqil deyildik, ancaq Sovet İttifaqında məhz Bakı Astronavtika Konqresinin məkanı kimi seçilmişdir. Bu gün isə biz müstəqilik və müstəqil Azərbaycan bu böyük tədbirə ev sahibliyi edəcəkdir.

Növbəti 2-3 il ərzində konqresin keçirilməsi üçün böyük təşkilati işlər aparılmalıdır. Biz təqribən 6-7 min xarici qonaq gözləyirik. Bu qonaqlar dünyanın texnoloji gündəliyini müəyyən edən qurumların rəhbərləridir, nümayəndələridir. Ona görə vaxt gələndə Konqresin yüksək səviyyədə keçirilməsi üçün Təşkilat Komitəsi yaradılacaq və əlbəttə ki, əsas hazırlıq işlərini "Azərkosmos" öz üzərinə götürəcəkdir. Beləliklə, biz növbəti böyük uğura imza atdıq. İndi Konqres zamanı aparılan müzakirələr və gedən proseslər haqqında məlumat verin.

x x x

"Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin sədri Rəşad Nəbiyev:

- Cənab Prezident, verdiyiniz yüksək dəyərə və qiymətə görə çox sağ olun. Əvvəlcə bir məqamı qeyd etmək istərdim ki, Konqresin Bakıda keçirilməsi ilə bağlı verilmiş qərar təbii ki, ölkəmizdə mövcud olan siyasi və iqtisadi sabitliklə bağlıdır. Nəyə görə? Çünki ölkələrin götürdüyü öhdəliklərin 3 ildən sonra yerinə yetirilməsi əsas şərtlərdən biri idi. Digər tərəfdən, ölkəmizdə yaradılmış infrastrukturun xüsusi rolu, önəmi olmuşdur. Bizdə beynəlxalq tədbirlərin keçirilməsi üçün kifayət qədər yaxşı infrastruktur vardır. Digər bir məqam isə, cənab Prezident, ölkəmizdə bu sepkidə tədbirlərin keçirilməsi ənənəsinin mövcudluğudur. Bunların hamısından da ən vacibi, cənab Prezident, Sizin şəxsən Azərbaycan insanına və onun inkişafına verdiyiniz önəmdir. Çünki kosmik sənayenin özünü uğurlu edən əsas meyarlardan biri insan amilidir. Son illərdə Azərbaycanda təhsilə göstərilən diqqət və qayğı nəticəsində bu gün ölkəmizdə kifayət qədər bacarıqlı, texniki bilikləri və vərdişləri olan yeni bir nəsil formalaşmaqdadır. Ən önəmli məsələ isə odur ki, onlar öz Vətənini, xalqını sevən bir nəsildir.

Cənab Prezident, seçki prosesinə gəldikdə isə bir məqamı vurğulamaq istərdim ki, Sizin tapşırığınızla "Azərkosmos"la yanaşı, ölkəmizdə aidiyyəti qurumların hər biri koordinasiyalı şəkildə öz səylərini bir araya qoyaraq bu nəticəni əldə edə bilmişlər.

Altmış səkkiz ölkədən 398 üzvü birləşdirən bu Federasiya dünyada texniki sahədə mövcud olan ən böyük qurumlardan biridir. Bu tədbir istər iştirakçıların say baxımına, istərsə də burada müzakirə olunan məsələlərin vacibliyinə görə ən mötəbər tədbirlərdən biridir.

Rəqiblərimiz Siz vurğuladığınız kimi, Sinqapur, Rio-de-Janeyro və Dehli idi. Əgər biz Hindistana baxmış olsaq, onlar dünyanın ən aparıcı kosmik ölkələrindən biridir. Braziliyanın timsalında astronavtikaya baxmış olsaq, onlar dünyada sərnişin təyyarələri istehsal edən üç ən öndə gedən ölkədən biridir. Sinqapur isə istər coğrafi mövqeyinə, istərsə də bu sepkidə tədbirlərin keçirilməsinə görə dünyanın ən lider ölkələrindən biridir.

Cənab Prezident, bu tədbirə maraq oyadan digər məqamlardan biri də ondan ibarətdir ki, son illərdə bu sahəyə özəl sektorun marağı durmadan artmaqdadır. "Amazon" şirkətinin rəhbəri Ceff Bezos da məlum olduğu kimi, burada əsas çıxışçılardan biri idi. Ötən illərdə əsas çıxışçılardan biri "SpaceX" şirkətinin yaradıcısı Elon Mask olub. Yəni, bu, onu göstərir ki, kosmik sənaye yalnız dövlətlərin marağında deyil, artıq özünün cəzbediciliyi baxımından özəl sektorun da marağını cəlb edir.

Uğur qazanmağımızın ən əsas səbəblərindən biri ondan ibarət olmuşdur ki, 1973-cü ildə Sovet İttifaqında ilk və yeganə Konqres Ulu Öndərin təşəbbüsü ilə Azərbaycanda Bakı şəhərində keçirilmişdir. Bu tədbirdən təxminən 6 ay sonra Azərbaycanın kosmik sənayesinin əsasları qoyulmuşdur. "Kaspi" Tədqiqat Mərkəzi yaradılmaqla Azərbaycan mütəxəssisləri kosmik sahədə tədqiqatlara, kosmik cihazlar hazırlamağa başlamış, sonradan o cihazlardan "Salyut" və "Soyuz" kimi peyklərdə istifadə olunmuşdur.

Ardı Səh. 3

# "İndi bizim 3 peykimiz var və Azərbaycanda kosmik sənaye inkişaf edir"

*Prezident İlham Əliyev "Azərkosmos" Açıq Səhmdar Cəmiyyətinin sədrini qəbul edib*

Əvvəli Səh. 2

x x x

Prezident İlham Əliyev: Bəli, bu, çox böyük hadisədir. Bir daha demək istəyirəm ki, biz bu hüququ çox gərgin mübarizədə əldə etmişik. Bu, bizim ölkəmizin növbəti böyük qələbəsidir. Əminəm ki, Konqres Azərbaycanda ən yüksək səviyyədə keçiriləcək, minlərlə xarici qonaq ölkəmizə səfər edəcək, o qonaqlar ki, onlar bu gün dünyanın texnoloji gündəliyini müəyyən edir. Əlbəttə ki, bu, həm bizim üçün böyük şərəfdir, eyni zamanda, böyük məsuliyyətdir və bununla bərabər böyük fürsətdir. Yəni, biz bu Konqresin Azərbaycanda keçirilməsindən çox böyük dividendlər əldə etməliyik. O mənada ki, beynəlxalq əməkdaşlıq daha da geniş vüsət almalıdır.

Azərbaycan artıq bir neçə ildir ki, kosmik klubun üzvüdür. Əlbəttə ki, müasir texnologiyaların inkişafı bizim gündəliyimizin əsas məsələlərindən biridir. Bu gün dünyanın inkişafı müasir texnologiyaların imkanından asılıdır. O ölkələr ki, bu texnologiyaları icad edir, yaxud da ki, onları tətbiq edir, o ölkələr daim uğur qazanacaqlar. XXI əsr texnoloji mübarizə əsridir və bizim kadr potensialımız, texniki imkanlarımız buna hazır olmalıdır. Məhz buna görə Azərbaycan yüksək texnologiyaları inkişaf etdirən ölkələrdən biridir. Bundan sonra da kadr hazırlığı, texnoloji inkişaf, müasir texnologiyaların Azərbaycana gətirilməsi istiqamətində əlavə addımlar atılacaq. Siz də qeyd etdiyiniz kimi, hazırda artıq böyük biznes də bu sahəyə çox böyük maraq göstərir. Əslində inkişaf etmiş ölkələrdə müasir texnologiyalar, o cümlədən astronavtika sahəsində əldə edilmiş uğurlar böyük biznesin dəstəyi ilə baş verir. Biz elə etməliyik ki, dünyanın aparıcı biznes strukturlarından hansıların rəhbərləri Azərbaycanda keçiriləcək Konqresdə iştirak edəcək, onlar bu tədbirə qədər ölkəmiz haqqında geniş məlumata malik olsunlar. Ona görə növbəti 2-3 il ərzində sizin və digər aidiyyəti qurumların rəhbərləri gərək bu şirkətlərlə sıx təmaslar qursunlar. Konqresə hazırlıq dövrü elə olmalıdır ki, buraya gələcək qonaqlar artıq bizimlə müəyyən müxtəlif sahələrdə əməkdaşlıq etməyə hazır olsunlar. Ona görə Konqresin keçirilməsi çox önəmli hadisədir. Ancaq Konqresdən sonrakı dövr də az əhəmiyyət daşımır. Çünki Konqresdən sonrakı dövr Azərbaycanda yeni texnoloji inkişaf dövrü olmalıdır. Əlbəttə ki, genişmiqyaslı beynəlxalq tədbirlərin keçirilməsi istiqamətində son illər ərzində əldə edilmiş təcrübə bizə imkan verəcək ki, Konqres ən yüksək səviyyədə keçirilsin.

# "Azərbaycan ilə Böyük Britaniya arasında əməkdaşlıq dinamik şəkildə inkişaf edir"

*Prezident İlham Əliyev Böyük Britaniya Baş Nazirinin Azərbaycan üzrə ticarət elçisini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 29-da Böyük Britaniyanın Baş Nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolsonu qəbul edib.***

AZƏRTAC xəbər verir ki, Azərbaycan ilə Böyük Britaniya arasında əməkdaşlığın dinamik şəkildə inkişaf etdiyini bildirən dövlətimizin başçısı enerji sahəsində Böyük Britaniyanın Azərbaycanın əsas tərəfdaşlarından biri olduğunu vurğuladı. Prezident İlham Əliyev qeyri-neft sektorunda əməkdaşlığın inkişafı üçün də geniş imkanların olduğunu dedi. Dövlətimizin başçısı ölkələrimiz arasında əlaqələrin genişlənməsində Böyük Britaniya Baş Nazirinin Azərbaycan üzrə ticarət elçisi Baronessa Emma Nikolsonun rolunu qeyd etdi.

Azərbaycan ilə Böyük Britaniya arasında dostluq və tərəfdaşlıq münasibətlərinin olduğunu deyən Baronessa Emma Nikolson iqtisadi, ticari, mədəni və humanitar sahələrdə əlaqələrimizin inkişafı üçün səylərini əsirgəmədiyini bildirdi. O, Azərbaycana səfəri çərçivəsində çoxsaylı görüşlər keçirdiyini, Muğam Mərkəzində olduğunu və bu Mərkəzin onda böyük təəssürat yaratdığını dedi. Görüşdə ölkələrimiz arasında kənd təsərrüfatı, səhiyyə, elm, təhsil, bərpa olunan enerji və digər sahələrdə əməkdaşlığın inkişafına dair geniş fikir mübadiləsi aparıldı.

## Budimir Lonçar: "Qoşulmama Hərəkatının Bakı Sammiti çox yüksək səviyyədə təşkil olunub"



Qoşulmama Hərəkatının XVIII Zirvə Görüşü çox yüksək səviyyədə təşkil olunub. Xarici İşlər nazirlərinin beynəlxalq şurasının sabiq vitse-prezidenti Budimir Lonçar bu fikri Bakıda keçirilən Sammit barədə təəssüratlarını AZƏRTAC-la bölüşərkən səsləndirib. Belə bir mötəbər beynəlxalq qurumun Zirvə Görüşünün Bakıda yüksək səviyyədə təşkil olunması onu deməyə əsas verir ki, ölkəniz növbəti üç il ərzindəki sədrliyi də uğurla həyata keçirəcək. Azərbaycan bu gün sülhsevər, səmərəli və məhsuldar siyasət yürüdür.

"Mən Qoşulmama Hərəkatının nazirlər səviyyəsində olan toplantılarına bir neçə dəfə sədrlik etdiyimdən deyə bilərəm ki, bu tədbir üçün vaxt çox düzgün seçilib. Belə ki, Sammit dünya ölkələrinin bir-birindən daha çox asılı olduğu, eyni zamanda, parçalandığı və qütbləşdiyi dövrə təsadüf edir. Qoşulmama Hərəkatı üzv dövlətlər arasında sülhün və təhlükəsizliyin carçısı kimi çıxış edərək, onların ortaq maraqlarını beynəlxalq arenada müdafiə edir", - deyə Budimir Lonçar qeyd edib.



Bernama.com Get It Right

Non-Aligned Movement News Network

GENERAL+ BUSINESS+ POLITICS+ SPORTS+ FEATURES+ WORLD+ WEBTV INFOGRAPHICS ARCHIVED

MICRO SITE : Finance | Health | Energy | Property | Lifestyle

LATEST Muhammad Safawi eyes Malaysia Cup glory [ 2m ago ]

End of cold war has not diminished role of NAM, says Azerbaijan Foreign Minister

Last update: 23/10/2019

From R.Ravichandran

BAKU (AZERBAIJAN), Oct 23 – The end of the Cold War has not diminished the role of the Non-Aligned Movement (NAM) in the international relations system but rather has reinforced its significance in light of the growing challenges, said Azerbaijan Foreign Minister Elmar Mammadyarov.

He said that throughout its history, NAM has played a fundamental role in strengthening international peace and security.

Mammadyarov pointed out that NAM, as the second-largest international political organisation after the United Nations, provides a broad and inclusive platform for political consultations and practical cooperation.

NAM now has 120 member countries, 17 observer countries and 10 observer organisations.

"Today the major task before us must be to activate the role of the Movement to make it adequate to new realities in the current geopolitical landscape by promoting and upholding its founding principles which continue to be as much valid and relevant as they were when incepted," the minister said in his speech at the Preparatory Ministerial Meeting of the 18th Summit of Heads of State and Government of NAM, here today.

Mammadyarov said that as most of the NAM Member States are developing countries, advancing economic cooperation within the Movement is of utmost importance.

advertisement
BERNAMA.COM
BERNAMA LIFESTYLE & YOUTH SPECIAL COVERAGE VIDEO

## Bernama agentliyi: Soyuq müharibənin başa çatması Qoşulmama Hərəkatının əhəmiyyətini azaltmayıb

Malayziyanın aparıcı Bernama xəbər agentliyi Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarovun Qoşulmama Hərəkatının dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşünün Nazirlərin Hazırlıq Toplantısında çıxışına istinadən "Soyuq müharibənin başa çatması QH-nin əhəmiyyətini azaltmayıb" başlıqlı məqalə dərc edib.

AZƏRTAC xəbər verir ki, yazıda soyuq müharibə dövründən sonra artan qlobal çağırışlar fonunda Qoşulmama Hərəkatının nüfuzunun daha da gücləndiyi qeyd olunub.

Məqalədə bildirilir ki, Qoşulmama Hərəkatı yarandığı gündən bəri sülh və təhlükəsizliyin təminatında əsas rol oynayır. BMT-dən sonra ikinci ən böyük beynəlxalq siyasi təşkilat olaraq Hərəkatın siyasi dialoq və praktiki əməkdaşlıq üçün vacib beynəlxalq platforma olduğu məqalədə öz əksini tapıb. Hələ də aktuallığını saxlayan Hərəkatın hazırkı geosiyasi vəziyyətdə qarşıda duran əsas vəzifələrinin təməl prinsiplərini təbliğ etmək və dəstəkləməklə təşkilatın rolunu artırmaq olduğu yazıda qeyd olunub.

Nazirin sözlərini sitat gətirən agentlik yazır ki, Hərəkata üzv ölkələrin əksəriyyəti inkişaf etməkdə olan ölkələr olduğundan təşkilat çərçivəsində iqtisadi əməkdaşlığın inkişaf etdirilməsi son dərəcə vacibdir. O cümlədən enerji təhlükəsizliyi, ətraf mühit, səhiyyə və əmək fəaliyyəti kimi sahələrdə əməkdaşlığın təşviqi və bu məqsədlə Qoşulmama Hərəkatına üzv dövlətlərin maraqlarının BMT çərçivəsində təşviqi böyük əhəmiyyət kəsb edir.

Məqalədə qeyd olunur ki, Azərbaycanın bu nüfuzlu təşkilata sədrliyi dövründə ən çox diqqət ediləcək prioritet sahələrdən biri də gənclərin səlahiyyətlərinin artırılması olacaqdır. Hərəkatın Zirvə Görüşü və Nazirlər Toplantısı çərçivəsində qəbul olunacaq sənədlər gənclərin dövlət idarəçiliyində iştirakının artırılması, onların sosial, təhsil və məşğulluq problemlərinin həlli, habelə Davamlı İnkişaf üzrə 2030-cu ilədək Gündəliyin hədəflərinə çatmaqda gənclərin daha fəal iştirakı kimi siyasətin müxtəlif aspektlərini əhatə edəcək. Bu sənədlərdə qarşıya qoyulan məqsədlərin həyata keçirilməsi üçün əməli tədbir olaraq Azərbaycan ilk dəfə Qoşulmama Hərəkatının Gənclər Sammitinin Bakıda keçirilməsi təşəbbüsü ilə çıxış edib. Gənclər Zirvəsi Qoşulmama Hərəkatına üzv dövlətlərdən 40 görkəmli gənci bir araya gətirəcək.

# Regionların inkişafı iqtisadiyyatın dayanıqlığını təmin edir

## Prezident İlham Əliyev: "Vətəndaşlara xidmət etmək bizim borcumuzdur"

***Müasir dövrümüzdə iqtisadiyyatın dayanıqlı inkişafının təmin edilməsi və əhalinin sosial həyat səviyyəsinin yüksəldilməsi dövlətimizin qarşısında vacib vəzifə kimi durur. Bu baxımdan, bilavasitə Prezident İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə regionların davamlı sosial-iqtisadi inkişafının təmin edilməsi ilə bağlı hazırlanan və müvəffəqiyyətlə həyata keçirilən dövlət proqramları olduqca təqdirəlayiqdir.***

Son 16 ildə Azərbaycanın bölgələrinin tarazlı və hərtərəfli inkişafında, iqtisadi fəallığın yüksəlməsində, iqtisadiyyatın rəqabət qabiliyyətinin artmasında, iş yerlərinin və yeni müəssisələrin yaradılmasında, əhalinin məşğulluğunun yaxşılaşmasında, ümumilikdə, respublikamızın dayanıqlı və sürətli inkişafının təmin olunmasında regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarının icrası mühüm əhəmiyyət kəsb edir. Regionların sosial-iqtisadi inkişafı ilə bağlı həyata keçirilən siyasət iqtisadi tərəqqinin əsas amilinə, sistemli və dayanıqlı inkişafın dövlət tənzimlənməsinin mütərəqqi bir metoduna çevrilib.

Ötən 16 ilin təcrübəsi göstərir ki, ölkənin sosial-iqtisadi inkişafında prioritet kimi müəyyən edilmiş və neft-qaz gəlirlərindən səmərəli istifadə etməklə, regional tarazlığın təmin edilməsində regional inkişaf üzrə dövlət proqramları mühüm rol oynayıb. Dövlət proqramları çərçivəsində Azərbaycanın iqtisadi qüdrəti daha da yüksəlib, ölkədə işgüzar fəallıq artıb, regionlarda sahibkarlıq fəaliyyəti daha da genişlənib, geniş və ölkənin bütün coğrafi hüdudlarını əhatə edən iri infrastruktur layihələri həyata keçirilib. Bölgələrdə ən müasir texnologiyaların tətbiq olunduğu və beynəlxalq tələblərə cavab verən rəqabətqabiliyyətli və ixracyönümlü məhsullar istehsal edən yeni müəssisə və obyektlər yaradılıb. İstehsal müəssisələrində işlə təmin olunan vətəndaşların rifahını xarakterizə edən keyfiyyət göstəriciləri əhəmiyyətli dərəcədə yaxşılaşıb.

Azərbaycan Prezidenti İlham Əliyevin, mütəmadi olaraq, bölgələrə səfər etməsi və səfərləri çərçivəsində müxtəlif təyinatlı infrastruktur obyektlərinin açılış və təməlqoyma mərasimlərində iştirakı, müəssisələrin fəaliyyəti ilə yaxından tanış olması, eləcə də, ictimaiyyətlə keçirdiyi görüşlərdə qaldırılmış məsələlərin həlli məqsədilə vəsaitin ayrılması regionların inkişafına göstərdiyi diqqətin bariz nümunəsidir. Həmçinin, xüsusi olaraq, vurğulamaq lazımdır ki, son illər ərzində, ölkəmizin sosial-iqtisadi inkişaf istiqamətində böyük məsafələr qət edən, xalqa verdiyi vədi yerinə yetirən və Ulu Öndər Heydər Əliyev siyasi kursunun alternativsizliyini ortaya qoyan ölkə başçısı İlham Əliyevin, müntəzəm olaraq, regionlara səfərləri zamanı insanlarla həmişə təmasda olması, sıravi adamlarla, ziyalılarla və gənclərlə görüşləri Ona öz işini səmərəli qurmaqda, nöqsanları aradan qaldırmaqda, qarşıya yeni vəzifələr qoyub həyata keçirməkdə imkanlar yaradır və hakimiyyətlə xalqın birliyini möhkəmləndirir.

### "Qəbələ rayonu Azərbaycanın Bakıdan sonra ikinci turizm məskənidir"

Bu, bir reallıqdır ki, Prezident İlham Əliyevin Azərbaycanın şəhər və rayonlarına hər bir səfəri insanların qayğı və problemlərinə həssas münasibətin nümayişinə çevrilir. Bütün bunlarla yanaşı, dövlət başçısının cəmiyyətin sosial sifarişinə uyğun çevik qərarlar qəbul etməsi, problemlərə böyük həssaslıqla yanaşması və daim ictimaiyyət arasında olması cəmiyyətin, nəinki tərəqqisini, həm də xoş ovqatını təmin edən mühüm cəhətlərdir. Ötən illər ərzində, ölkəmizin sosial-iqtisadi inkişafı istiqamətində böyük məsafələr qət edən, xalqa verdiyi vədləri yerinə yetirən dövlətimizin başçısı İlham Əliyev hər bir addımda vətəndaşların mənafeyi amilini ön plana çəkir.



Bu günlərdə regionlara növbəti səfərləri çərçivəsində Prezident İlham Əliyev zərbaycan Prezidenti İlham Əliyev oktyabrın 28-də Qəbələ və Ağdaş rayonlarında olub və bu bölgəyə səfəri bir sıra sosial və iqtisadi təyinatlı obyektlərin açılışı ilə əlamətdar olub.

Prezident İlham Əliyev Qəbələ rayonunun Böyük Əmili-Bılıx-Əmirvan avtomobil yolunun yenidənqurmadan sonra açılışında iştirak edib. "Azərxalça" ASC-nin Qəbələ filialının açılış mərasimində iştirak edən dövlət başçısı kollektivlə görüşü zamanı bu gözəl müəssisədə 50-dən çox iş yerinin yaradıldığını və gələcəkdə iş yerlərinin sayının daha da çox olacağını dedi: "Əsas məsələ ondadır ki, burada qadınlar üçün iş yerləri yaradılır. Yeni qadınları işlə təmin etmək üçün xüsusi tədbirlər görülür ki, Azərbaycanda iş yerləri daha da sürətlə açılsın, daha geniş əhalini əhatə etsin. Burada iş şəraiti də, əməkhaqqı da yaxşıdır. Azərbaycanda xalçaçılıq sənətinin bundan sonra da yaşadılması üçün biz çox böyük işlər görürük. Bu məqsədlə "Azərxalça" müəssisəsi yaradılıbdır və mənim göstərişimlə ölkəmizdə 30-dan çox xalça fabriki tikilməlidir. Onlardan 10-u istifadəyə verilib, o cümlədən, biri Qəbələ şəhərində. Növbəti illərdə isə, 20-dən çox fabrik fəaliyyətə başlayacaq. Bu fabriklərdə minlərlə yeni iş yeri yaradılacaq".

Ölkə Prezidenti Qəbələ rayonunun Azərbaycanın Bakıdan sonra ikinci turizm məskəni olduğunu bildirdi: "Turizmin inkişafı sürətlə davam edir, 9 otel və 9 istirahət mərkəzi yaradılıb. Bir neçə il bundan əvvəl, mənim təşəbbüsümlə Qəbələdə beynəlxalq aeroport tikilib. Baxmayaraq ki, sovet vaxtında Qəbələdə aeroport yox idi, indi beynəlxalq uçuşlar təşkil edilir. İcra başçısı mənə məlumat verdi ki, bu il təkcə otellərdə 150 min qonaq istirahət edib. Fərdi evlərdə də bəlkə o qədər qonaq istirahət edib. Bu, vətəndaşlara da böyük maddi dəstəkdir. İmkanı olan vətəndaşlar öz evlərinin bir hissəsini kirayəyə verirlər, pul qazanırlar. Kəndlilər də öz məhsullarını satırlar. Ona görə turizmin inkişafı əhalinin çox böyük bir hissəsini əhatə edir".

### Xalq-iqtidar birliyi - müstəqil Azərbaycanın möhkəm təməlidir

Ağdaş rayonuna səfəri zamanı son illər rayonda görülən işlər, həyata keçirilən layihələr, eləcə də, Ulu Öndərin abidəsi ətrafında aparılan abadlıq-quruculuq işləri barədə məlumat verilib. Dövlət başçısı rayonda yenidən qurulan Qolqəti-Dəhnəxəlil-Qoşaqovaq-Ərəbocağı avtomobil yolunun açılış mərasimində iştirak edib. Eyni zamanda, Prezident İlham Əliyev Ağdaş şəhərinin içməli su təchizatı və kanalizasiya sistemləri istismara verilməsi tədbirdə iştirak edib, rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb. Dövlətimizin başçısı rayon ictimaiyyətinin nümayəndələri ilə görüşü zamanı çıxış edərək, Prezident kimi Ağdaş rayonuna beşinci səfəri olduğunu, hər səfərdə uğurlu lahiyələrin açılışını etdiyini bildirib: "Hər səfərdə biz hansısa önəmli layihənin ya təməl daşını qoyuruq, ya da ki, açılışını qeyd edirik, o cümlədən, bu gün. Artıq neçə vaxtdır ki, Ağdaş şəhərinə içməli suyun verilməsi təmin edilibdir. Bu gün isə, bu gözəl layihənin rəsmi açılışını qeyd edirik. Bu, doğrudan da, çox böyük hadisədir. Həm içməli su, həm kanalizasiya layihəsi tam başa çatıb və şəhər əhalisi 24 saat ərzində təmiz içməli su ilə təmin olunur. Bu suyun keyfiyyəti də Dünya Səhiyyə Təşkilatının bütün standartlarına cavab verir. Ona görə bu gözəl hadisəni biz birlikdə qeyd edirik".

Dövlət başçısı onu da bildirib ki, içməli su problemi bir sıra ölkələrdə çox ciddi problem kimi qalır: "Biz isə bütün şəhərlərdə bu layihələri icra edirik. İlk növbədə, Bakı şəhərində bunu icra etdik və çox müasir, dünya miqyasında ən böyük sutəmizləyici stansiya tikildi. İndi bütün şəhərlərdə bu layihələr ya icra edilib, ya da ki, icradadır. Cəmi beş şəhər qalıb ki, hələ orada işlər başlamayıb. Ancaq "Azərsu"ya göstəriş verildi ki, gələn ildən başlayaraq, qalan bu beş şəhərin də içməli su problemi öz həlini tapsın. Eyni zamanda, insan sağlamlığı üçün digər vacib amil keyfiyyətli qidadır. Bu məsələyə də diqqət yetirilir, Qida Təhlükəsizliyi Agentliyi yaradılıbdır".

Prezident İlham Əliyev çıxşı zamanı onu da bildirib ki, xalqa xidmət etmək borcumuzdur: "Vətəndaşlara xidmət etmək bizim borcumuzdur. Prezident kimi mənim əsas vəzifəm ölkə daxilində olan problemləri həll etməkdir. Ona görə də mən bölgələri gəzirəm, hər il bəlkə də 30-35 rayonda oluram. Elə rayonlar var ki, 10 dəfədən çox olmuşam. Amma 4-5 dəfədən az olduğum rayon yoxdur. Ona görə gəlirəm, vəziyyətlə tanış oluram, mövcud olan problemləri vətəndaşların dilindən eşitmək istəyirəm ki, o problemlər həll olunsun. Ona görə mənim işimin əsas hissəsini daxili məsələlər tutur və məhz buna görə Azərbaycan çox uğurla inkişaf edir".

### "Dünya ictimaiyyəti bizi dəstəkləyir, bizə inanır, bizə rəğbətlə yanaşır və bizim mövqeyimizi müdafiə edir"

Prezident İlham Əliyev çıxışında ən əsas məqamlardan olan dünya ictimaityyətinin də Azərbaycan dövlətinin apardığı siyasəti dəstəklədiyini bildirib: "Beynəlxalq gündəliyimiz də çox zəngindir. Təkcə bu ay ərzində Azərbaycan iki önəmli təşkilata sədrliyi öz üzərinə götürüb. Oktyabrın ortasında Azərbaycan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına sədrliyi öz üzərinə götürüb və biz bir il bu təşkilata rəhbərlik edəcəyik. Oktyabrın 25-də isə, dünyanın ikinci böyük təşkilatı olan Qoşulmama Hərəkatına sədrlik etməyə başlamışıq. Qoşulmama Hərəkatından daha böyük təşkilat Birləşmiş Millətlər Təşkilatıdır ki, onun da sədri olmur. Orada Təhlükəsizlik Şurasının sədri olur və özü də rotasiya qaydasında. Ona görə biz bu gün işlək vəziyyətdə sədrliyi olan ən böyük beynəlxalq təşkilata sədrlik edirik və bu sədrliyi 119 ölkənin dəstəyi ilə əldə etmişik. Bu, nəyi göstərir? Onu göstərir ki, dünya ictimaiyyəti bizi dəstəkləyir, bizə inanır, bizə rəğbətlə yanaşır və bizim mövqeyimizi müdafiə edir. İki gün əvvəl Yekun Bəyannamədə bizim istədiyimiz bütün məsələlər öz əksini tapıb, o cümlədən, ərazi bütövlüyü ilə, erməni işğalı ilə bağlı. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar bizim mövqeyimizlə bağlı istədiyimiz bütün müddəalar orada öz əksini tapıb. Yəni bu, böyük nailiyyətdir. Mən tam səmimi deyirəm, bu təşkilatda yekdil dəstək almaq çox böyük qəhrəmanlıqdır. Çünki təşkilatın 120 üzv ölkəsi var. Bəzi ölkələr bir-biri ilə yola getmir, bəzi ölkələr arasında çox böyük ixtilaflar, hətta münaqişələr var. Buna baxmayaraq, onların hamısı bizi dəstəklədilər.

Bizim daxili siyasətimiz, bax, bu reallığı yaradır, xarici siyasətimiz də mövqeyimizi gücləndirir. Ona görə bizim gələcəkdə ancaq inkişaf yolu ilə getməyimiz üçün bütün şərtlər var. Mən tam əminəm ki, Azərbaycan bundan sonra da sabitlik, inkişaf və tərəqqi yolu ilə gedəcək, bu gün xalqı narahat edən bütün problemlər - sosial infrastruktur, sosial ədalətlə bağlı olan problemlər öz həllini tapacaq".

### Mükəmməl iqtisadi təhlillərə söykənən iqtisadi proqram

Bir sözlə, güclü iqtisadi təhlillərə söykənən regionların sosial-iqtisadi inkişafı üzrə dövlət proqramları Prezident İlham Əliyevin çox mükəmməl iqtisadi təhlillərinə və elmi əsaslara söykənən iqtisadi proqram adlandırmaq olar. Ölkə başçısının son 16 il ərzində, bölgələrə davamlı şəkildə səfərlər etməsi və hər dəfə yerli sakinlərlə görüşü, bir daha təsdiq edir ki, ölkə vətəndaşları öz Prezidentinə daima inanır və onları daha əzmlə çalışmağa sövq edir. Cənab Prezident daim vətəndaşlarla açıq şəkildə təmas qurараq onların görmək istədikləri, arzu etdikləri məsələlərin həyata keçməsi üçün bütün tədbirlərin görüləcəyini əmin etməklə, insanlarda dövlətə olan dərin inamı daha da möhkəmləndirmiş olur.

Göründüyü kimi, Prezident İlham Əliyevin rayonlara sistemli və davamlı xarakter alan səfərləri regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsində müstəsna əhəmiyyət kəsb edir. Bütün ölkə üzrə aparılan yenidənqurma işlərinin və inkişaf proqramlarının həyata keçirilməsinə dövlət büdcəsindən ayrılan xərclərlə yanaşı, Prezidentin Ehtiyat Fondundan da əlavə maliyyə vəsaitləri yönəldilir ki, bu da insanların rahatlığına və firavan yaşamasına səbəb olur.

**RƏFİQƏ KAMALQIZI**

## Əflatun Amaşov yazır: "Bəlkə karvanın keçməsi üçün itə həqiqətən ehtiyac var"



Hər insanın uşaqlığında gələcək xarakterinin formalaşmasına təsir göstərən müəyyən həyat epizodu olur. Məndə də olub. Məktəblikən möhkəm dalaşmışdım. Hadisə böyük səs-küy doğurmuşdu. Yadımdan çıxmaz, özümə bəraət qazandırmaq istəyirdim ki, rəhmətlik babam dilləndi: yoldan keçəndə çəpərdən çıxan it sənə hürsə, sən də ona hürəcəksənmi?! Təəccüblə "yox" dedim. Bəs niyə dalaşdın, deyə məni məzəmmət elədi. O gündən bir çox şeylərə münasibətim dəyişdi.

Məni tanıyanlar bilir, hamı ilə dil tapmağı bacaran, kimisə yanlış davranışına görə itirən, silən deyiləm. Düşünürəm ki, hətta ən ipə-sapa yatmaz adamın belə həlim damarı var. Ümumən ünsiyyətdə olduğum, tanıdığım hər kəsdə müsbət tərəfləri görməyə çalışmışam. Şəxsimə ünvanlanan ən sərt tənqidlərə dözümlü yanaşmışam. Nəzərə alın ki, dostlarımın içərisində vaxtilə məni tənqid edənlər az deyil. Bəziləri yenə tənqid edir. İnanın, onların mənə xeyir verdiklərini düşünürəm.

Aslan İsmayılov adlı biri var. Barəmdə zaman-zaman aşağı-yuxarı danışmaqla məşğuldur. Bəlkə də məni tənqid etdiyini düşünür. Ancaq niyəsə həmişə hesab etmişəm ki, bu adam ancaq danışmaqla məşğuldur.

Bəli, adam illərdir, ölkəmizin belə demək mümkünsə, "ictimai rinq"indədir. Beləsi üçün ictimai mühit anlayışının yad olduğu qənaətindəyəm. Obrazlı desəm, dava axtarır və həmişə şillə-təpiklə üzləşərək döyülür. Düşdüyü durum yaşına-başına heç yaraşmır. Nə bilmək olar, bəlkə "döyülməkdən" həzz alır. Müqayisə aparsam, deyə bilərəm ki, "reket jurnalistika" nə qədər dövrün neqativ reallığı kimi ortaya çıxmış hadisədirsə, Aslan İsmayılovun da bizi əhatə edən ətraf aləmdəki hərşeyşünas-hüquqşünas obrazı mənim üçün eyni effekti yaradan haldır. Buna görə heç vaxt dediklərinə reaksiya verməmişəm. "İt hürər, karvan keçər" deyimi köməyimə çatıb. Bu söylədiklərim də əslində reaksiya deyil. Heç təəssüf də deyil. Nə deyim, bəlkə karvanın keçməsi üçün itə həqiqətən ehtiyac var. Allah babama rəhmət eləsin!

## "KİVDF-nin maliyyələşdirdiyi qəzetlər böyük oxucu auditoriyasını əhatə edir"



"Bu gün Azərbaycanda aparılan uğurlu islahatlar, eyni zamanda, mətbuata da öz təsirini göstərməkdədir. Xüsusilə, medianın inkişafı və tərəqqisi yönündə atılan hər bir addımlar bilavasitə dövlətin, cənab Prezidentin bu sahəyə göstərdiyi diqqət və qayğısının məntiqi nəticəsidir". Sözügedən fikirləri "Səs" qəzetinin baş redaktoru, media eksperti Bəhruz Quliyev Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) əleyhinə qərəzli şəkildə kampaniya aparanlara münasibətini açıqlayarkən deyib.

Onun sözlərinə görə, kimlərsə öz subyektiv fikirlərini deyə bilərlər, lakin bu o demək deyil ki, həmin şəxslər istədikləri mövzulara qərəzli yanaşma edərək, öz yanlış fikirlərini ictimai rəyə çatdırsınlar: "O da sirr deyil ki, Azərbaycan mətbuatına qarşı qarayaxma kampaniyaları aparan tərəflər var ki, onlar mediaya qarşı tənqidçi deyil, məhz təhdidçi mövqelərdə dayanıblar, ölkədə aparılan uğurlu mətbuat siyasətini hədəfə alıblar. Onlar həmin insanlardırlar ki, daim öz maddi maraqlarını güdüblər, həmin maraqlarına görə baxışlarını dəyişiblər ki, indi də bu cür məntiqsiz, reallığa söykənməyən iddialarını irəli sürməkdədirlər".

"Xüsusilə vurğulamaq istərdim ki, Azərbaycanda mətbuat siyasəti dövlətin konkret proqramları ilə, cənab Prezident İlham Əliyevin şəxsi iradəsi ilə formalaşıb, eyni zamanda, Konstitusiyamızda mətbuatın fəaliyyətini tənzimləyən müddəalar öz əksini tapıb, Qanunlar qəbul edilib, bir sözlə hüquqi baza formalaşdırılıb", deyən baş redaktor əlavə edib ki, məhz bu baxımdan, ölkə mətbuatının inkişafı üçün dövlət başçımız tərəfindən çoxsaylı sərəncamlar verilib, Dövlət Proqramları qəbul olunub: "Onlardan biri də məhz Azərbaycan respublikası prezidentinin yanında Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondudur ki, bu Fond vasitəsilə Dövlət mətbuata qayğı göstərərək, maliyyə yardımı etməklə yanaşı söz, ifadə, fikir azadlığının qorunmasına öz töhfəsini verir. Lazım gələndə isə cənab İlham Əliyev bu məsələdə də öz şəxsi iradəsini də ortaya qoyub. Əminliklə deyə bilərik ki, Azərbaycan mətbuatı dünya mətbuatı ilə rəqabət apara biləcək səviyyədədir".

Ekspertə görə, indi də bəzi qruplar və buna rəvac verənlər öz şəxsi maliyyə və siyasi maraqlarını həyata keçirmək üçün Azərbaycanın ən aparıcı standartlara sahib olan mediasını hədəfə almaqla, əslində özlərini ifşa etmiş olurlar: "Amma fakt budur ki, KİVDF-ni tənqid edənlərin nə maliyyələşmə prosedurundan, nə də Fondun qoyduğu kriteriyalardan xəbərləri belə yoxdur. Yazılı mətbuata maliyyə ayrılarkən qəzetin ictimai nüfuzu, icimai şüura təsiri, oxucu auditoriyasının genişliyi, tirajı və s. nəzərə alınır. Yəni, tənqid reallığa soykənməli, obyektiv olmalıdır. Bəzi tənqidçi dairələr anlamalıdırlar ki, KİVDF tərəfindən verilən yardımlar bilavasitə medianın, o cümlədən yazılı medianın uğurlu perspektivlərini müəyyənləşdirir, həmçinin mövcud kriteriyaları önə çıxarmış olur. Bu kriteriyaların hər biri ciddi amillərə söykənir, eyni zamanda, mətbuatımızın ciddiliyini isbatlamaqdadır. Belə hesab edirəm ki, KİVD-nin də bu sahədə apardığı işlər kifayət qədər obyektiv, şəffaf və qərəzdən kənardır. Ayrılan maliyyələr də həmin amallara hesablanır, bu istiqamətlər üçün də nəzərdə tutulur. Deyərdim ki, həmin adamların qeyri-müəyyənlikləri elə yazılı mətbuata göstərdikləri yanlış baxışlarından da görünməkdədir. Əgər bu gün KİVDF hər hansı qəzetlərə maliyyə ayırmırsa, deməli həmin qəzetlər azad rəqabətə davam gətirə bilməyiblər".

Ekspert sonda onu da bildirib ki, KİVDF "SƏS" qəzetinə də maliyyə ayırır: "Bu maliyyə vasitəsi ilə biz daha çevik, operativ fəaliyyət göstərir, həmçinin etibarlı, qiymətli oxucularımızın qarşısına gündəlik saylarımızla çıxırıq, onların tələbatlarını yazılarımız, məqalələrimiz, açıqlama və şərhlərimizlə yüksək keyfiyyətlə ödəyirik. Bu səbəbdən, bəzi adamlar hər hansı fikir, rəy bildirərkən, ümumi deyil, konkret faktlara əsaslanaraq çıxış etməlidirlər ki, mən düşünmürəm onlarda belə faktlar olsun. Çünki onların etdikləri yanaşma sadəcə qərəzdən və böhtandan başqa bir şey deyil".

## Cəlilabadda "Müasir çağırışlar: dini durum və vəzifələr" mövzusunda ikigünlük regional konfrans işə başlayıb





***Oktyabrın 29-da Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Cəlilabad Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə "Müasir çağırışlar: dini durum və vəzifələr" mövzusunda ikigünlük regional konfrans işə başlayıb.***

Regional konfransda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Cəlilabad Rayon İcra Hakimiyyətinin rəhbər şəxsləri, yerli hüquq-mühafizə orqanlarının rəhbərləri, dini icma sədrləri, din xadimləri, ilahiyyatçılar, həmçinin ictimaiyyət fəalları iştirak ediblər.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, tədbirdə əvvəlcə DQİDK-nın tabeliyindəki Mənəvi Dəyərlərin Təbliği Fondunun sifarişi ilə çəkilmiş "Heydər Əliyev: dəyərlərimizin xilaskarı" sənədli filmi nümayiş olunub. Konfransı açan rayon icra hakimiyyətinin başçısı Namiq Zeynalov bildirib ki, bu gün Azərbaycan dünyada mövcud olan nümunəvi tolerant ölkələrdən biridir. Ölkəmizdə güclü tolerantlıq ənənələrinin getdikcə daha da möhkəmləndirilməsi isə Azərbaycanı dünyada multikulturalizmin mərkəzlərindən birinə çevirib. Cəlilabaddakı dini durum barəsində də məlumat verən N.Zeynalov qeyd edib ki, rayonda 108 məscid və 2 kilsə fəaliyyət göstərir. Hər bir dinin nümayəndəsinin dini inancını rahat şəkildə yerinə yetirə bilməsi üçün lazımi şərait yaradılıb.

Regional konfransda çıxış edən DQİDK sədri Mübariz Qurbanlı bildirib ki, bu gün müstəqil Azərbaycanın beynəlxalq aləmdə nüfuzu durmadan artır. Ulu Öndərin əsasını qoyduğu siyasətin onun layiqli siyasi varisi Prezident İlham Əliyev tərəfindən uğurla aparılmasının nəticəsidir ki, Azərbaycan Respublikası dünyada demokratik, hüquqi və dünyəvi dövlət kimi tanınır. Eyni zamanda, Azərbaycan bir çox millətlərin və konfessiyaların dinc, yanaşı yaşamasının unikal nümunəsidir. Dinlərarası dialoq və əməkdaşlıq sahəsindəki təcrübəsi ilə beynəlxalq aləmdə yüksək qiymətləndirilən ölkəmizdə dövlət-din münasibətləri sağlam təməllər üzərində qurulub.

Çıxışında dini radikalizm, xurafat kimi bəlalarla mübarizənin vacibliyinə də diqqət çəkən Mübariz Qurbanlı qeyd edib ki, İslam sülhü, dostluğu və qardaşlığı təbliğ edən bir dindir. Qurani-Kərimdə təqdim olunan prinsiplər, düşüncələr insanları barışığa və birliyə çağırır. Aparılan təhlillər göstərir ki, dini radikal qrupların yaradılmasında məqsəd müəyyən xarici siyasi və geopolitik maraqları həyata keçirməkdir. Onlar anlamırlar ki, siyasi oyunlara alət edilən din əsl missiyasını, mahiyyətini itirmiş olur. Dinin siyasiləşməsinin doğurduğu acı nəticələri biz bu gün İraq və Suriyada baş verən hadisələrdən aydın görürük. Komitə sədri vurğulayıb ki, ölkədəki dini etiqad azadlığından sui-istifadə edilərək xalqımızın yüz illər boyu yaşatdığı tolerantlıq ənənələrinə xələl gətirilməsi yolverilməzdir. Azərbaycanda dindən siyasi məqsədlər naminə istifadə etməyə çalışanlara qarşı həm inzibati, həm də ideoloji müstəvidə mübarizə aparılır. O, həmçinin dini dözümlülük, tolerantlıq mədəniyyətinin inkişaf etdirilməsi, o cümlədən radikalizmin, ekstremizmin qarşısının alınması sahəsində maarifləndirmənin alternativi olmadığını söyləyib. Milli-mənəvi dəyərlərimizin tərkib hissəsi olan islami dəyərlərimizin əsl mahiyyətinin gənc nəslə çatdırılmasının zəruriliyinə diqqət çəkib.

Dinə dövlət qayğısından bəhs edən Cəlilabad "Cümə" məscidinin axundu Hacı Mahmud Əsgərov bildirib ki, bu gün Azərbaycanda milli-mənəvi dəyərlərin qorunması, təbliği istiqamətində mühüm işlər görülür, Prezident İlham Əliyev bütün sahələrdə olduğu kimi, din, milli-mənəvi dəyərlərin qorunması sahəsində də ardıcıl siyasət həyata keçirir. Konfrans işini oktyabrın 30-da "Dini radikalizmlə mübarizə və maarifləndirmə" mövzusunda panellə davam etdirəcək.

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

30 oktyabr 2019-cu il

# Azərbaycanda xalçaçılıq sənəti yaşadılır

***"X**alçaçılıq sənəti bizim milli sənətimizdir, bizim qədim sənətimizdir. Azərbaycan xalçaları dünyanın ən aparıcı muzeylərində nümayiş etdirilir. Xalça bizim məişətimizin ayrılmaz hissəsidir və Azərbaycan xalçaları öz keyfiyyəti ilə seçilir. Biz elə etməliyik ki, bu sənət daim yaşasın". Bu fikirləri "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Qəbələ filialının açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyev deyib.*



Xalqımızın mənəvi dünyasını, gözəllik duyumunu, fitri istedadını, dünyaya fəlsəfi baxışlarını sirli naxışlarda yaşadan xalça sənətinin Azərbaycan




ərazisində geniş yayılmasına və inkişaf etməsinə səbəb bu ərazidə olan əlverişli coğrafi iqlim şəraiti və müvafiq təsərrüfat fəaliyyəti olmuşdur. Yarandığı ilkin dövrlərdə tələbatı ödəyən, köçəri həyat tərzi yaşayan insanların çadırlarında döşənək kimi istifadə olunan xalça, getdikcə yüksək bədii əhəmiyyət kəsb etmiş, insanların həyatının ayrılmaz hissəsinə, istehsal fəaliyyətinin aparıcı növünə çevrilmişdir. Toxucular da estetik zövqlərini xalçalarda əks etdirməklə bərabər, öz dövrlərinin ümumi mənzərəsini toxuduqları xalçalara köçürürlər.

## "ÖLKƏMİZDƏ 30-DAN ÇOX XALÇA FABRİKİ TİKİLMƏLİDİR"

Azərbaycanda dövlət tərəfindən xalçaçılığın inkişafına xüsusi diqqət və qayğı göstərilir. "Azərbaycan xalça sənətinin qorunması və inkişaf etdirilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olunmuş, Xalça Muzeyi üçün müasir standartlara cavab verən bina inşa edilmiş, rayonlarda yerli xalçaçılıq ənənələrini əks etdirən xalça muzeyləri yaradılmışdır. Bu sahəyə göstərilən yüksək diqqət və qayğının nəticəsidir ki, Azərbaycan Prezidentinin 28 fevral 2018-ci il tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı" təsdiq olunmuşdur. Sadalananlar Azərbaycan dövlətinin xalçaçılıq sənətinə olan diqqət və qayğısının nəticəsidir, xalçaçılığın həm tarixi-mədəni, həm də sosial-iqtisadi faktor kimi yüksək qiymətləndirməsinin önəmli nümunəsidir.

"Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin yaradılması bu sahədə görülən işlərin davamıdır. Azərbaycan Prezidenti İlham Əliyevin məlum Sərəncamı ilə "Azərxalça" Açıq Səhmdar Cəmiyyəti yaradılmış və xalçaçılığın inkişafı istiqamətində mühüm tədbirlər həyata keçirmişdir. Burada xalçanın toxunuşu ilə yanaşı, eyni zamanda, onun xammalının hazırlanması, emalı, bərpası, ticarəti də mühüm əhəmiyyət kəsb edir. Xalçaçılığın inkişafı ilə bağlı son illərdə görülən işlər öz bəhrəsini verir. Bu sahənin inkişafına xüsusi diqqət və qayğı sayəsində, artıq bir çox bölgələrdə xalça fabrikləri istifadəyə verilib və bəzi regionlarda yeni fabriklərin açılması istiqamətində işlər gedir. Qeyd etdiyimiz kimi, bu günlərdə "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Qəbələ filialının açılışı oldu. Bu, artıq sayca 10-cu müəssisədir. "Mənim göstərişimlə ölkəmizdə 30-dan çox xalça fabriki tikilməlidir" deyən Azərbaycan Prezidenti onlardan 10-nun istifadəyə verildiyinin diqqətə çatdırıb: "Növbəti illərdə isə, 20-dən çox fabrik fəaliyyətə başlayacaq. Bu fabriklərdə minlərlə yeni iş yeri yaradılacaq".

## "AZƏRBAYCAN DAHA DA GÜCLƏNİR, ÖLKƏMİZİN UĞURLU İNKİŞAFI TƏMİN EDİLİR"

Əlbəttə ki, bu fabriklərin açılması, xüsusilə, qadınların işlə təmin olunmasında müstəsna əhəmiyyətə malikdir. Qeyd edək ki, Qəbələ filialı toxuculuq emalatxanasında müxtəlif ölçülü 43 dəzgahda Azərbaycan xalçaları toxunacaq və zəruri xammal və ləvazimatlarla - müxtəlif rəngli yun iplərlə, həvə, qayçı və bıçaq kimi alətlərlə təmin edilib. Toxucular Qəbələ şəhərinin və rayonun ayrı-ayrı kəndlərinin sakinləridir. Açılış mərasimində ölkə Prezidenti İlham Əliyevin bildirdiyi kimi, bu gözəl müəssisədə indi 50-dən çox iş yeri yaradılıb: "Gələcəkdə iş yerlərinin sayı daha da çox olacaq. Əsas məsələ ondadır ki, burada qadınlar üçün iş yerləri yaradılır. Yəni qadınları işlə təmin etmək üçün xüsusi tədbirlər görülür ki, Azərbaycanda iş yerləri daha da sürətlə açılsın, daha geniş əhalini əhatə etsin. Burada iş şəraiti də, əməkhaqqı da yaxşıdır. Azərbaycanda xalçaçılıq sənətinin bundan sonra da yaşadılması üçün biz çox böyük işlər görürük".

Dövlət başçısı belə fabriklərin yaradılmasının əhəmiyyət kəsb etdiyini vurğulayaraq, onu da bildirib ki, gənc nəsil bu gözəl sənətə gələcək və bizim peşəkar mütəxəssislərimiz öz təcrübələrini bölüşərək bunu gənc nəslə də ötürəcəklər: "Beləliklə, xalça sənəti yaşayacaq, necə ki, əsrlər boyu yaşayıb".

Dünyada xalça istehsalçısı olan ölkələr arasında xalça çeşnilərinin elektron variantının hazırlanması, ilk dəfə olaraq, məhz Azərbaycanda həyata keçirilir. Xalçaçı-rəssamlar tərəfindən hazırlanmış elektron çeşnilər Bakı, Qarabağ, Naxçıvan, İrəvan, Təbriz, Şirvan, Quba, Gəncə, Qazax-Borçalı qrupları üzrə kataloqlaşdırılır. Daha çox dünya muzeylərində və şəxsi kolleksiyalarda saxlanılan nadir Azərbaycan xalça və xalça məmulatları əsasında çeşnilərin hazırlanmasına üstünlük verilir. Hər bir çeşni öz-özlüyündə xalça haqqında ilkin informasiya bazasıdır. İndiyədək 600-dən çox xalça çeşnisi hazırlanmış və onların əsasında "Azərxalça"nın filiallarında xalçalar toxunmuşdur.

"Azərxalça"nın yaradılması, görün, nə qədər böyük, gözəl hadisələrə təkan verdi" deyən dövlət başçısı bildirib ki, həm iş yerləri yaradılır, biz sənətimizi yaşadırıq, gənc nəsli yetişdiririk, həm də bölgələrdə yunçuluqla bağlı aparılan tədbirlər öz səmərəsini verir və nəticədə, Azərbaycan daha da güclənir, ölkəmizin uğurlu inkişafı təmin edilir.

**Nəzakət ƏLƏDDİNQIZI**

# Vüsal Qasımlı: "Azərbaycan qlobal istedad rəqabətliliyi indeksində MDB-də liderdir"

***A**zərbaycan "Qlobal İstedad Rəqabətliliyi İndeksi 2019" Hesabatında daha 14 pillə irəliləyərək 125 ölkə arasında 43-cü yerdə qərarlaşmaqla Baltik respublikaları istisna olmaqla postsovet məkanında lider mövqedədir.*

AZƏRTAC xəbər verir ki, hesabatı şərh edən İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru, iqtisad elmləri doktoru Vüsal Qasımlı deyib: "Postsovet məkanında Azərbaycanın ən yaxın izləyiciləri Rusiya 49-cu və Qazaxıstan isə 57-ci yeri tutub. Azərbaycan bu indeksə görə 2015-2016-cı ildə 71-ci, 2017-ci ildə 66-cı və 2018-ci ildə 57-ci yerdə qərarlaşmışdı. Azərbaycan qlobal istedad rəqabətliliyi indeksinə görə yuxarı orta gəlirli ölkələr arasında top-3-lükdə qərarlaşmaqla daxil olduğu region - Qərbi Asiya və Şimali Afrika ölkələri arasında 7-cidir".

O bildirib ki, "Qlobal İstedad Rəqabətliliyi İndeksi" hesabatı 5 indikator əsasında hesablanır: istedada yaradılan şərait, istedadın cəlb edilməsi, istedadın inkişafı, istedadın ölkədə qalmasının təmin edilməsi, peşə və texniki təhsil, yüksək ixtisaslar. Azərbaycan bu indikatorlar üzrə ən yüksək reytinqi peşə və texniki təhsil (25-ci yer) və ən aşağı reytinqi isə istedadın inkişafında (81-ci yer) alıb. Digər indikatorlar üzrə vəziyyətimiz belə olub: istedada yaradılan şərait 48-ci yer, istedadın cəlb edilməsi 44-cü yer, istedadın ölkədə qalmasının təmin edilməsi 41-ci yer və yüksək ixtisaslar 68-ci yer.




"Qlobal İstedad Rəqabətliliyi İndeksi 2019"da Azərbaycan bir sıra sub-indikatorlarda daha öndə olub: işə götürmənin asanlığı birinci yer, aktiv əmək bazarı siyasəti 32-ci, işçi-işəgötürən əməkdaşlığı 30-cu, əməkhaqqının məhsuldarlığa uyğunluğu 14-cü, birbaşa xarici investisiyalar və texnologiya transferi 28-ci, istedadların cəlbi 17-ci, qadınların liderlik imkanları 34-cü, müəssisə daxilində əməkdaşlıq 26-cı, müəssisələr arasında əməkdaşlıq 19-cu, sosial müdafiə 33-cü, istedadların ölkədə saxlanılması 25-ci, həkim sıxlığı 26-cı, orta təhsilli əmək qüvvəsi 5-ci, orta təhsilli əhali 4-cü, ixtisaslı işçinin tapılması imkanı 30-cu, təhsilin iqtisadiyyata uyğunluğu 33-cü, orta təhsilin əmək bazarına uyğunluğu 20-ci, ali təhsilin əmək bazarına uyğunluğu 36-cı, ali təhsilli əhali 33-cü, alimlərin və mühəndislərin əlçatanlığı 23-cü yer. Hesabatın məqsədi innovasiya, artım və rəqabətliliyi gücləndirmək üçün fərdlərin və komandaların potensialı və istedadı ətrafında qlobal müzakirə açmaqdır. Xüsusilə sahibkarlıq istedadını araşdıran hesabatda Azərbaycanın öncüllüyü Prezident İlham Əliyevin "qara qızıl"ın insan kapitalına çevrilməsi və sahibkarlığın inkişafı siyasətinin birbaşa nəticəsidir. Təkcə 2019-cu ildə həyata keçirilən 2 inqilabi sosial paket birbaşa insan kapitalına qoyulan sərmayədir və dövlətimizin başçısının siyasətinin mərkəzində insan amilinin olmasını göstərir. Birinci vitse-prezident Mehriban Əliyevanın fəaliyyəti Azərbaycanda əldə olunan iqtisadi nailiyyətlərin sosial rifah halının, o cümlədən, insan kapitalının inkişafına yönəldilməsində əhəmiyyətli rol oynayır", - deyə V.Qasımlı bildirib.

Qeyd edək ki, "Qlobal İstedad Rəqabətliliyi İndeksi 2019" Hesabatı dünyanın lider universitetlərindən olan INSEAD Biznes Məktəbi, "The Adecco Group" və "Tata Communications" tərəfindən hazırlanıb.

# Leyboristlər Böyük Britaniyada növbədənkənar seçkiləri dəstəkləyəcək



Böyük Britaniyanın Leyboristlər partiyası ölkədə növbədənkənar seçkilərin keçirilməsi barədə qanun layihəsini dəstəkləyəcək. Bu barədə Reuters agentliyi xəbər yayıb.

"Biz Avropa İttifaqından Brexit prosesinin yanvarın 31-dək uzadılması məsələsinin təsdiqləndiyini eşitdik, yeni ölkənin Aİ-ni sazişsiz tərk etməməsi barədə şərtimiz qəbul olundu. İndi isə biz əsl dəyişikliklər naminə ən iddialı və radikal seçkiöncəsi kampaniyaya başlayacağıq", - deyə partiyanın lideri Ceremi Korbin bildirib.

# "Bu iddialar dövlətimizin media siyasətini gözdən salmaq məqsədi daşıyır"

***Vüqar Səfərli: "Bizi ittiham edənlər hansı nüfuzu, tirajı olan və cəmiyyətdə tanınan qəzetin adını çəkə bilərlər ki, bu gün Fondun maliyyə yardımından kənarda qalıb? Ümumiyyətlə, Fondun dəstəyindən kənarda qalan ciddi imicli ictimai-siyasi qəzet varmı?"***



Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli "Trend"ə açıqlamasında rəhbəri olduğu qurumun fəaliyyəti ilə bağlı son günlər səslənən bəzi iddialara münasibətini bildirib.

***- Vüqar müəllim, son günlər bəzi saytlarda və sosial şəbəkədə Fondun guya cəmiyyətə təsir imkanları, habelə nüfuzu olmayan qəzetlərə maliyyə yardımı ayırması ilə bağlı ittihamlar səslənir...***

- Birmənalı şəkildə bəyan edirəm ki, bu iddialar tamamilə qərəzli və əsassızdır. Fondun "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası" və Nizamnamə ilə müəyyən edilmiş əsas fəaliyyət istiqamətlərindən biri kütləvi informasiya vasitələrinə maliyyə yardımının göstərilməsidir.

Maliyyə yardımı ayrılmasının şərt və meyarları ilə bağlı qərarlar Fondun Müşahidə Şurasının iclaslarında, kollegial və şəffaf şəkildə qəbul olunur. Fond il ərzində maliyyə yardımı müsabiqələri elan edir, maliyyə yardımının ayrılması şərtləri və meyarları müsabiqə elanında dəqiqliklə göstərilir. Həmin şərt və meyarlara əsasən, yayımı, tirajı və dövrülüyü müvafiq tələblərə cavab verən ictimai-siyasi qəzetərə maliyyə yardımı ayrılır.

Hazırda Fondun maliyyələşdirdiyi 25 ictimai-siyasi qəzetin hər biri həmin şərtlərə cavab verən, uzun illər ərzində fəaliyyət göstərən, cəmiyyətdə tanınan nəşrlərdir. Bizi qərəzli şəkildə ittiham edənlər hansı nüfuzu, tirajı olan və cəmiyyətdə tanınan qəzetin adını çəkə bilərlər ki, bu gün Fondun maliyyə yardımından kənarda qalıb? Ümumiyyətlə, Fondun dəstəyindən kənarda qalan ciddi imicli ictimai-siyasi qəzet varmı?

Əminliklə deyirəm ki, onlar belə bir qəzet adı çəkə bilməyəcəklər. Əgər əksini iddia edirlərsə, qərəzli və ümumi sözlərlə yox, konkret faktlar əsasında mövqelərini əsaslandırmalıdırlar. Bu gün Fonddan maliyyə yardımı almaq istəyən hər hansı qəzet elan olunmuş şərt və meyarlara cavab verməlidir.

Odur ki, "İctimai rəyə təsir imkanları və nüfuzu olmayan qəzetlərə maliyyə yardımının ayrılması" kimi qərəzli fikirlər yalnız Fonda qarşı qərəzli yanaşma deyil, həm də dövlətimizin media siyasətinin mahiyyətini gözdən salmağa xidmət edən məkrli kampaniyadır. Maraqlıdır ki, ictimai rəyə təsirdən danışanların özlərinin cəmiyyət arasında heç bir nüfuzu yoxdur, ictimai rəyə təsir imkanlarından isə heç danışmağa belə dəyməz.

***- Konkret olaraq Milli Məclisin deputatı Fəzail Ağamalı rəhbəri olduğunuz Fondu "ictimai rəyə təsir imkanları və nüfuzu olmayan" qəzetlərə maliyyə yardımı ayırmaqda ittiham edib...***

- Milli Məclisin deputatı Fəzail Ağamalının belə məsuliyyətsiz açıqlaması uzun illər fəaliyyət göstərən, Fondla əməkdaşlıq edən tanınmış qəzetlərə və onların kollektivinə qarşı hörmətsizlikdir. Bir daha təkrar edirəm - Fondun maliyyə yardımı ayırdığı qəzetlərin böyük əksəriyyəti 20 ildən çoxdur ki, fəaliyyət göstərən, ictimaiyyətin tanıdığı, oxucu auditoriyası olan nəşrlərdir.

Onu da bildirmək istərdim ki, maliyyə yardımı ayrılmış qəzetlər hər ayın yekununda Fonda tiraj, yayım və dövriyyələri ilə bağlı hesabat verirlər. Eyni zamanda, ayrılmış maliyyə yardımı müqabilində "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi konsepsiyası"nda əksini tapmış 19 prioritet istiqamət üzrə dərc edilmiş yazılar Fonda təqdim edilir. Həmin yazılarda dövlətimizin daxili və xarici siyasəti, cəmiyyət həyatının bütün sahələrində müşahidə olunan mütərəqqi dəyişikliklər, ordu quruculuğu, dövlətin gənclər siyasəti, demokratik inkişaf, və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlər dolğun əksini tapır.

Görünür, Fondun maliyyə yardımları barədə əsassız fikir səsləndirənlərin ölkədə mətbu nəşrlərin fəaliyyəti barədə məlumatlıq dərəcəsi də çox aşağıdır. Hesab edirəm ki, konkret fakta, dəlilə əsaslanmayan bu cür qərəzli fikirlər dövlətimizin müasir internet əsrində çap mediasının ayaqda durması və inkişafı yönümündə yürütdüyü siyasəti gözdən salmaq məqsədi daşıyır.

***- Fondun fəaliyyətində "şəffaflıq prinsipinə əməl olunmaması" barədə irəli sürülən ittihamlarla bağlı nə deyə bilərsiniz?***

- Qeyd etdiyim kimi, Fondun fəaliyyəti ilə bağlı bütün qərarlar Müşahidə Şurasının iclasında geniş müzakirə olunaraq qəbul edilir. Eyni zamanda, qəbul olunmuş qərarlar media vasitəsilə operativ olaraq ictimaiyyətə açıqlanır. Fondun daim yenilənən saytında onun fəaliyyəti ilə bağlı məlumatları əldə etmək mümkündür. Mütəmadi olaraq fəaliyyətimizlə bağlı hesabatlar veririk, bu hesabatlar mətbuatda da dərc olunur.

Təşkil etdiyimiz müxtəlif tədbirlərdə çoxsaylı jurnalistlər və nüfuzlu media orqanlarının rəhbərləri ilə yanaşı, Milli Məclisin deputatları, müxtəlif dövlət qurumlarının rəhbər şəxsləri, ziyalılar da iştirak edirlər. Bir sözlə, Fondun fəaliyyəti, gördüyü işlər, qəbul etdiyi qərarlar istər mətbuat, istərsə cəmiyyət üçün tamamilə açıq və şəffafdır.

***- Vüqar müəllim, səslənən ittihamlardan biri də odur ki, guya bir neçə mənzili olan KİV əməkdaşlarına da mənzil verilib.***

- Jurnalistlərə mənzillərin verilməsi prosesi yaradılmış xüsusi komissiya tərəfindən şəffaf və ədalətli şəkildə həyata keçirilib. Komissiya mənzillərin bölgüsünün şərt və meyarlarını hazırlayaraq əvvəlcədən KİV-də elan edib. Sonrakı mərhələdə mənzilə iddialı KİV əməkdaşlarının sənədləri toplanaraq sistemləşdirilib və aidiyyəti üzrə Azərbaycan Respublikası Prezidentinin Administrasiyasına təqdim edilib. Müvafiq araşdırmalardan sonra uzun illər jurnalistlika sahəsində çalışan, mənzilə ehtiyacı olan, habelə mediamızın inkişafında xidmətləri olan KİV əməkdaşlarının mənzillə təmin olunmasına qərar verilib.

# Vüqar Rəhimzadə: "Azərbaycan dünya siyasətinin gündəminin müəyyənləşdirilməsində mühüm rol oynayır"



Qoşulmama Hərəkatı 120 dövlətin üzv olduğu, digər 17 dövlətin və 10 beynəlxalq təşkilatın müşahidəçi statusunda çıxış etdiyi beynəlxalq təşkilatdır. Qoşulmama Hərəkatı, eyni zamanda, BMT-dən sonra ikinci ən böyük beynəlxalq təşkilatdır.

Bu sözləri Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə AZƏRTAC-a açıqlamasında söyləyib. Azərbaycanın 2011-ci ildən bu təşkilatın üzvü olduğunu bildirən Vüqar Rəhimzadə deyib: "Hazırda Qoşulmama Hərəkatına üzv ölkələrdə yaşayan əhalinin sayı bütün dünya əhalisinin 55 faizini təşkil edir. Dünya neft ehtiyatlarının 75 faizi, təbii qaz ehtiyatlarının 55 faizdən çoxu bu ölkələrin payına düşür. Qoşulmama Hərəkatında olduğu qısa müddət ərzində də ölkəmiz beynəlxalq hüququn norma və prinsiplərini qətiyyətlə müdafiə etməkdə böyük nüfuz qazandı. Məhz bu nüfuzun nəticəsidir ki, Hərəkata üzv ölkələrin dövlət və hökumət başçılarının 2016-cı ildə keçirilmiş XVII Zirvə Görüşündə növbəti Sammitin Bakı şəhərində keçirilməsi və 2019-2022-ci illər üzrə sədrliyin Azərbaycana həvalə edilməsi barədə yekdil qərar qəbul olunub. Bu, ölkəmizə göstərilən hörmətin, inamın və etimadın təzahürüdür".

"Təsadüfi deyil ki, oktyabrın 25-26-da Bakıda Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşünün keçirilməsi tarixi hadisə oldu", - deyən Vüqar Rəhimzadə əlavə edib ki, bu Sammitdə 60-a yaxın ölkənin dövlət və hökumət başçıları, həmçinin beynəlxalq təşkilatların rəhbərləri iştirak ediblər. Qeyd olunub ki, ümumilikdə, Zirvə Görüşünə 160-a yaxın ölkənin və beynəlxalq təşkilatın nümayəndələri qatılmışdı. Qoşulmama Hərəkatının yaradılmasının və fəaliyyətinin əsas prinsiplərindən biri onun üzvləri arasında əməkdaşlıq üçün bir forum rolunu oynamasıdır.

"İki sahil" qəzetinin baş redaktoru diqqətə çatdırıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən hərtərəfli düşünülmüş, uğurlu siyasət nəticəsində artıq Azərbaycanda təşkil olunan bütün qlobal tədbirlər dünya siyasətinin və gündəminin müəyyənləşdirilməsində mühüm rol oynayan beynəlxalq platformaya çevrilir. Bu, Azərbaycanın beynəlxalq aləmdə gündən-günə artan nüfuzundan və ölkəmizin əldə etdiyi böyük uğurlardan xəbər verir.

Quruma sədrlik səlahiyyətinin 3 il müddətində Azərbaycanda olmasının ölkəmizin beynəlxalq aləmdəki yerinin, rolunun, çəkisinin, nüfuzunun daha da artmasına və möhkəmlənməsinə gətirib çıxaracağını vurğulayan Vüqar Rəhimzadə bildirib: "Heç şübhəsiz, Azərbaycan bu tarixi fürsətdən, şansdan istifadə edərək ölkə həqiqətlərini, reallıqlarını, öz inkişafını dünyaya daha yaxından nümayiş etdirəcək, beynəlxalq aləm bir daha Azərbaycanın tərəqqisinin şahidi olacaq. Bütün bunları nəzərə alaraq deyə bilərəm ki, Qoşulmama Hərəkatının Bakı Zirvə Görüşü olduqca tarixi və böyük siyasi hadisə, ölkəmizin növbəti uğuru oldu".

# Azərbaycanın və Belarusun Müdafiə nazirlikləri arasında ikitərəfli əməkdaşlıq planı imzalanıb



Azərbaycan Respublikasının Müdafiə naziri, general-polkovnik Zakir Həsənov MDB-yə üzv dövlətlərin Müdafiə Nazirləri Şurasının növbəti iclasında iştirak etmək üçün ölkəmizdə səfərdə olan Belarus Respublikasının Müdafiə naziri, general-leytenant Andrey Ravkov ilə görüşüb. Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, general-polkovnik Z.Həsənov Azərbaycanın Belarus ilə bütün istiqamətlərdə, o cümlədən hərbi sahədə əməkdaşlığa böyük əhəmiyyət verdiyini qeyd edərək, ölkələrimiz arasında hərbi-texniki əməkdaşlığın inkişafı üçün geniş imkanların olduğunu vurğulayıb. Azərbaycanın Belarusun müdafiə sənayesi şirkətləri ilə əməkdaşlığa xüsusi önəm verdiyini qeyd edən Müdafiə naziri hazırda hərbi-texniki sahədə əməkdaşlığın da uğurla inkişaf etdiyini və genişləndiyini bildirib.

Qeyd edilib ki, Azərbaycan və Belarus beynəlxalq təşkilatlarda aktiv fəaliyyət göstərir və bütün məsələlərdə qarşılıqlı dəstək verirlər. Müdafiə naziri Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi məsələsində ölkəmizin suverenliyini və ərazi bütövlüyünü dəstəklədiklərinə görə Belarus rəhbərliyinə və xalqına minnətdarlığını bildirib.

General-polkovnik Z.Həsənov Belarusun ölkəmizdə yeni hərbi attaşesi, polkovnik Andrey Kaptiloviçi bu vəzifəyə təyin olunması münasibətilə təbrik edərək, onun fəaliyyətinin ölkələrimiz arasında qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan dostluq münasibətlərinin inkişafına yönələcəyinə əminliyini ifadə edib.

Tərəflər ikitərəfli hərbi əməkdaşlığın və ölkələrimizin Müdafiə nazirlikləri arasında qarşılıqlı əlaqələrin daha da inkişaf etdirilməsinin zəruriliyini qeyd ediblər. Söhbət zamanı Azərbaycan ilə Belarus arasında hərbi sahədə əməkdaşlığın hazırkı vəziyyəti və inkişaf perspektivləri ətraflı təhlil edilib, dövlətlərimizin regional təhlükəsizliyə töhfələri xüsusi vurğulanıb. Görüşün sonunda Azərbaycan Respublikasının və Belarus Respublikasının Müdafiə nazirlikləri arasında 2020-ci il üçün ikitərəfli Əməkdaşlıq Planı imzalanıb. Plan ekspert qruplarının qarşılıqlı səfərlərinin təşkili, birgə döyüş hazırlığı tədbirlərinin keçirilməsi, qabaqcıl təcrübə mübadiləsi və digər vacib məsələləri nəzərdə tutur.

## XİN: "Ermənistan müdafiə nazirinin "Qarabağ məsələsi öz həllini tapıb" fikri xəstə təxəyyülün məhsuludur"



Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin mətbuat katibi Leyla Abdullayeva Ermənistan müdafiə nazirinin münaqişənin həlli ilə bağlı dediyi "Qarabağ məsələsi öz həllini tapıb" fikrinə münasibət bildirilməsi ilə bağlı KİV-in ünvanladığı sualı cavablandırıb. AZƏRTAC xəbər verir ki, mətbuat katibi Leyla Abdullayeva deyib: "Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə beynəlxalq vasitəçilərin iştirakı ilə uzun illərdir ki, səylərin davam etdiyi bir vaxtda işğalçı ölkənin müdafiə nazirinin belə bir fikirlə çıxış etməsi yalnız xəstə təxəyyülün məhsulu ola bilər.

Bilirsiniz, faşizmi qəhrəmanlaşdıran, Azərbaycanın ərazilərini işğal edərək bu torpaqlarda yaşayan yerli azərbaycanlılara qarşı qanlı etnik təmizləmə həyata keçirən və Xocalı soyqırımı kimi vəhşilik törədən bir ölkənin müdafiə nazirindən daha nə gözləmək olar?! Ancaq bir məqamı vurğulamaq istərdim, Ermənistanda qəhrəman səviyyəsinə yüksəldilən faşist cəlladı Qaregin Njde də vaxtilə məsələnin həll edildiyini düşünürdü, ancaq onun aqibətinin necə olduğu hamıya bəllidir.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi yalnız beynəlxalq hüququn prinsipləri tam təmin edildikdən və ədalət bərpa olunduqdan, beynəlxalq ictimaiyyətin də tələb etdiyi kimi, Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində suverenliyinin və ərazi bütövlüyü bərpasından sonra həll olunacaq".

## Ukrayna portalı: Qoşulmama Hərəkatının Bakı Zirvə Görüşü Azərbaycana dərin hörmət və etibarın təzahürüdür

Ukraynanın "Versii" portalı həmvətənimiz, hüquq elmləri doktoru, Ukrayna Milli Aviasiya Universitetinin beynəlxalq hüquq kafedrasının professoru, bu ölkənin Əməkdar təhsil işçisi Arif Quliyevin Qoşulmama Hərəkatının Bakıda keçirilən XVIII Zirvə Görüşünə həsr olunmuş məqaləsini dərc edib.



Главная > Мир > Проявление глубокого уважения, веры и доверия Азербайджану

ВЕРСИИ.COM

Политика
Экономика
Бизнес
Медиа-Дайджест
ФизCulture
Мир
ТОП-20
Блоги
Архив
ЮГО-ВОСТОК
Поиск

Проявление глубокого уважения, веры и доверия Азербайджану

Политический Институт Движение неприсоединения служит пропаганде общечеловеческих ценностей и демонстрирует приверженность суверенитету, независимости и территориальной целостности всех стран. Основные направления организационной деятельности сформулированы на конференции стран Азии и Африки в г. Бандунге (Индонезия) в апреле 1955 года — эти 10 принципов сотрудничества афроазиатских стран включают:...

«1) уважение основных прав человека, целей и принципов устава ООН; 2) уважение суверенитета и территориальной целостности всех стран; 3) признание равенства всех рас и всех наций, больших и малых; 4) воздержание от интервенции и вмешательства во внутренние дела других стран; 5) уважение прав каждой страны на индивидуальную или коллективную оборону; 6а) воздержание от использования соглашения о коллективной обороне в частных интересах какой-либо из великих держав; 6б) воздержание любой страны от оказания нажима на другие страны; 7) воздержание от актов или угроз агрессии или применения силы против территориальной целостности или политической независимости любой страны; 8) урегулирование всех международных споров мирными средствами; 9) содействие взаимным интересам и сотрудничеству; 10) уважение справедливости и международных обязательств».

От исторического прошлого к настоящему

Движение создано в 1961 году. Одним из ключевых принципов создания и деятельности Движения неприсоединения является его роль в качестве площадки для обсуждения и сотрудничества между его членами. В настоящее время организация насчитывает 120 членов, 17 государств-наблюдателей и 10 международных организаций-наблюдателей. Движение неприсоединения - вторая по численности участников организация после Организации

AZƏRTAC xəbər verir ki, "Azərbaycana dərin hörmətin, inam və etibarın təzahürü" sərlövhəli məqalədə müəllif Zirvə Görüşünün əhəmiyyəti, Azərbaycanın beynəlxalq aləmdəki nüfuzu ilə bağlı məsələlərə toxunub. Yazıda bildirilir ki, Azərbaycanın Qoşulmama Hərəkatına üzv olmasının ilk günlərindən bu təşkilat ölkəmizin suverenliyini, ərazi bütövlüyünü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığını yekdilliklə dəstəkləyir, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar qəbul etdiyi bütün sənədlərdə problemin məhz bu prinsiplər əsasında həllini tələb edir.

Müəllif vurğulayır ki, Azərbaycanın 2019-2022-ci illərdə Hərəkata sədrliyi dövlətimizin qlobal proseslərdə rolunu və nüfuzunu daha da gücləndirəcək, beynəlxalq səviyyədə mövqeyini möhkəmləndirəcək, ölkənin iqtisadi artımına töhfə verəcək, qeyri-neft sektorunun və ixrac potensialının inkişafı üçün geniş imkanlar açacaq. Əlbəttə, əldə olunmuş bütün müsbət nəticələr Azərbaycan Prezidentinin 2011-ci ildə ölkəmizin Qoşulmama Hərəkatına üzv olması ilə bağlı qəbul etdiyi strateji qərara əsaslanır. Bu, ulu öndər Heydər Əliyevin və onun layiqli davamçısı Prezident İlham Əliyevin uzaqgörən siyasətinin növbəti uğuru, beynəlxalq aləmdə ölkəmizə göstərilən hörmətin, inamın və etimadın göstəricisidir.

# İqtisadi inkişaf strategiyasında vergi siyasəti

## Prezident İlham Əliyev: "Vergidən başqa heç bir ödəniş ola bilməz"



***Azərbaycan Prezidenti İlham Əliyev oktyabrın 23-də Mikayıl Cabbarovu yeni vəzifəyə təyin olunması ilə əlaqədar qəbul edib, xüsusi tapşırıqlarını verərəkən, bəzi dövlət məmurlarının öz şəxsi bizneslərini üstün tutduqlarını, daha doğrusu, haqsız rəqabət apardıqlarını da vurğulayıb. Həmçinin, sahibkarların hüquqlarının qorunması və onların məmurlar tərəfindən incidilməməsilə bağlı xüsusi tapşırıq verib.***

Prezidentin verdiyi tapşırıqda sahibkarlardan alınan qanunsuz ödənişlərə son qoyulması tapşırılıb. Ölkə başçısı "vergidən başqa heç bir ödəniş ola bilməz" deməklə, sahibkarları hansı qanunsuz ödənişlərdən xilas etmiş oldu?

### "Dövlət sahibkarlar üçün ən yaxşı tərəfdaşdır"

Son illərdə Azərbaycanda müşahidə olunan yüksəliş və tərəqqi, iqtisadiyyatın sürətli artım tempi respublikada həyata keçirilən uğurlu islahatların nəticəsi olmaqla yanaşı, həm də sahibkarlığa göstərilən yüksək diqqət və qayğının təzahürüdür.

Xüsusi olaraq, vurğulamaq lazımdır ki, ölkədə sahibkarlığın daha da inkişafı üçün biznes mühitinin daim yaxşılaşdırılması, müvafiq qanunvericilik bazasının təkmilləşdirilməsi, yerli və xarici investisiyaların, müasir texnologiyaların, idarəetmə təcrübəsinin cəlb edilməsi və bu yolla yüksək keyfiyyətli, rəqabətqabiliyyətli məhsulların istehsal edilməsi Prezident İlham Əliyevin müəyyən etdiyi iqtisadi inkişaf strategiyasının prioritetlərindəndir. Eyni zamanda, sahibkarlığa dövlət himayəsinin sistemli şəkildə həyata keçirilməsi, sahibkarlara dəstək tədbirlərinin səmərəsinin yüksəldilməsi, bu sahədə mühüm nailiyyətlərin əldə edilməsinə səbəb olub.

Bu faktoru təsdiqləyən amil sahibkarlara böyük dəstək olacaq yeni agentliyin yaradılmasıdır. "Dövlət sahibkarlar üçün ən yaxşı tərəfdaşdır" deyən Azərbaycan Prezidenti hələ bir neçə il öncə, hər bir sahə üzrə konkret proqramları, planların və böyük maliyyə resurslarının olduğunu söyləyəndə, məhz belə layihələri nəzərdə tuturdu. İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında imzaladığı Fərman da deyilənləri təsdiqləyir. Agentliyin əsas məqsədi kiçik və orta sahibkarların dostuna çevrilməsi və eyni zamanda, sahibkarlığın hüquqi təminatının gücləndirilməsi, regionlarda sahibkarlığın inkişafına əlverişli şərait yaradılması əsasında dayanıqlı inkişafın təmin edilməsidir.

### Kiçik və orta sahibkarlıq - dövlətin iqtisadi qüdrətini artıran başlıca amil

Ən əsas məqam isə, bəzi dövlət məmurlarının sahibkarların işlərinə mane olmaqları ilə, çirkin əməllərini həyata keçirənlərə sərt mesajlar da verib: "Kiçik və orta sahibkarlığın inkişafı dövlətin iqtisadi qüdrətini artıran başlıca amildir. Ancaq təəssüflər olsun ki, bəzi məmurlar buna, doğrudan da, maneçilik törədirlər".

Dövlət başçısı çıxışı zamanı sahibkarlara qarşı yönəlmiş o çirkin əllərin kəsilməsini sərt halda bildirdi: "Biz çox yaxşı bilirik ki, inkişaf etmiş ölkələrdə ümumi daxili məhsulda əsas rolu kiçik və orta sahibkarlar oynayır. Bizdə isə, hələ ki, belə deyil. Biz də çalışmalıyıq elə bir şərait yaradaq ki, hər bir istedadlı insan, biznesə meyili, həvəsi olan hər bir insan bizneslə məşğul ola bilsin, məmur təzyiqindən, müdaxiləsindən azad olsun. Sahibkarlara yönəlmiş o çirkin əllər gərək kəsilsin. Bəzi hallarda dövlət məmurları, yerli icra orqanlarının rəhbərləri, nümayəndələri imkan vermirlər, xüsusilə, bölgələrdə. Əgər indi kimsə özü üçün bir balaca iş qurursa, gəlib zəli kimi onun bədənindən yapışırlar, qanını sorurlar. Belə adamlara qarşı çox ciddi tədbirlər görüləcəkdir. Hüquq-mühafizə orqanları artıq məndən çox ciddi tapşırıq alıblar və siz nazir kimi çalışmalısınız ki, belə hallara

# İqtisadi inkişaf strategiyasında vergi siyasəti

## Prezident İlham Əliyev: "Vergidən başqa heç bir ödəniş ola bilməz"

yol verilməsin, əgər yol verilərsə, dərhal məni məlumatlandırın. Belə yaramaz məmurlara qarşı ən ciddi sanksiyalar və tədbirlər görüləcəkdir. Ona görə biz sahibkarlara nəfəs verməliyik ki, onlar rahat işləsinlər. Vergidən başqa heç bir ödəniş ola bilməz".

### "Vergidən yayınmaya son qoyulmalıdır"

Dövlət başçısı vergi ilə bağlı məsələyə daima diqqət yetirərək dönə-dönə vurğulayıb ki, vergidən yayınmaya son qoyulmalıdır: "Bu, həm iri, həm kiçik sahibkarlara aiddir. Sahibkarlar da bilməlidirlər ki, əgər onlar sahibkarlar kimi öz fəaliyyətini davam etdirmək istəyirlərsə, vergiləri tam ödəməlidirlər. Heç kimə heç bir güzəşt edilmir və edilməyəcək. Bilirəm ki, bəzi sahibkarlar bəzi dövlət məmurlarına arxalanırlar, o dövr artıq keçibdir. Heç kimə arxalanmasınlar. Əgər hansısa bir dövlət məmuru sahibkarlara xüsusi şərait yaratmaq üçün qanunsuz əməllər edəcəksə, çox ciddi şəkildə cəzalandırılacaq. Bütün müvafiq qurumlara göstəriş verildi, ilk növbədə, Vergilər Nazirliyinə. Bu nazirlik heç nəyə baxmadan, dövlət maraqlarını rəhbər tutaraq, öz siyasətini aparmalıdır. Bütün dövlət qurumları, o cümlədən, sahibkarlar bu sahədə öz dəstəyini verməlidirlər. Dəstək verməyən isə cəzalandırılacaq".

### Prezident İlham Əliyev ölkənin, həqiqətən, "böyük yarası" sayılan haqsız rəqabətin əsas kökünü açdı...

"Haqsız rəqabət, bu da, bizim üçün böyük yaradır. Buna təkan verən dövlət məmurlarıdır, hansıların ki, biznes maraqları var. Onlar öz imkanlarından istifadə edərək rəqibləri sıradan çıxarırlar, bəzi hallarda, şərləyirlər. Elə şərait yaradırlar ki, onlar məcbur olub ya bizneslərini satsınlar, ya da ki, çıxıb getsinlər".

Bunu Prezident İlham Əliyev Mikayıl Cabbarovu yeni vəzifəyə təyin olunması ilə əlaqədar qəbul edən zaman deyib. Ölkə başçısının fikrincə, belə hallara yol vermək olmaz: "Mən bilirəm, sizə nazir kimi, xüsusilə, vergilər naziri kimi, bəziləri təzyiqlər göstərməyə çalışırdılar ki, bizim biznesimizə dəymə. Mən bilirəm ki, siz onların qarşısında çox mətanətlə çıxış etmisiniz. Mən bunu həmişə dəstəkləmişəm və sizə həmişə dəstək olmuşam. Demişəm ki, heç kimə baxmadan, bütün işlər ən yüksək səviyyədə görülməlidir. Heç kim heç bir imtiyaza sahib ola bilməz. Bir imtiyaz var: vergini vermək, Vətənə ləyaqətlə xidmət etmək və pozuntulara yol verməmək. Ona görə sizin qarşınızda çox böyük vəzifələr dayanır. Ölkə iqtisadiyyatının dayanıqlı inkişafı bizim üçün hazırda əsas prioritet məsələdir. Dediyim kimi, bu, imkan verəcək ki, biz sosial sahəyə daha böyük vəsait ayıraq".

Göründüyüu kimi, həqiqətən, bəzi məmurların biznesi himayə etməsi sahibkarlıq sektorunda haqsız rəqabətə yol açırdı. Bu da, biznesin inkişafını əngəlləyir, rəqabətin qarşısını alırdı. Dövlət başçısı bu problemin kökünü açmaqla, çox vacib məsələyə toxundu. Bununla da, bundan sonra haqsız rəqabətə qarşı daha sərt mübarizə aparılacaq.

### "Vergi planının yerinə yetirilməsi çox yüksək qiymətə layiq olan məsələdir"

Dövlət başçısı Nazirlər Kabinetinin 2018-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasındakı yekun nitqində bildirib ki, artıq bu gün vergi sahəsində bütün özbaşınalıqlara son qoyulub: "Vergi sahəsində də çox dərin islahatlar aparıldığını deyən ölkə başçısı vurğulayıb ki, vergi planının yerinə yetirilməsi çox yüksək qiymətə layiq olan məsələdir. Çünki əvvəlki rəhbərlik tərəfindən buraxılmış kobud səhvlər, ona gətirib çıxarmışdı ki, gələn illərin vergiləri yığılırdı, beləliklə, bir piramida yaradılırdı, sahibkarlar incidilirdi, onlara qarşı əsassız tələblər irəli sürülürdü. Vergi sahəsində özbaşınalıq hökm sürürdü, bir çox xoşagəlməz əməllər müşahidə olunurdu. Bütün bunlara son qoyulmalı idi və son qoyuldu".

Dövlət başçısı ötən ilin təcrübəsinə əsaslanaraq, onu da bildirib ki, həm vergi, həm gömrük sahəsində yeni rəhbərlik mənim göstərişlərimi yaxşı yerinə yetirir: "Biz bu sahələrdə aparılan islahatların nəticələrini bundan sonrakı illərdə də aparılan islahatlar, şəffaflaşma, vergi ödənişində yüksək etimad mühitinin yaradılması istiqamətində görülən işlər, sosial sahədə aparılan islahatlar ölkədə sürətli inkişaf üçün yeni imkanlar açdı". Bu yerdə onu da əlavə edək ki, Azərbaycan "Doing Business 2020" reytinqində 190 ölkə arasında yenə də ilk sıralarda qərarlaşıb ki, bu da ölkədə aparılan iqtisadi islahatların daha bir göstəricisidir.

Bir sözlə, bütün bunlar, bir daha təsdiqləyir ki, Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan, hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən vergi siyasəti hər bir vətəndaşın maraq və mənafeyini özündə ehtiva edir. Vətəndaşların maraqlarına yönələn vergi siyasətinin həyata keçirilməsi isə, ölkəmizin sürətli sosial-iqtisadi inkişaf prosesinin davam etməsinə öz töhfələrini bundan sonra da verəcəkdir.

**RƏFİQƏ KAMALQIZI**

## Bakıda MDB Müdafiə Nazirləri Şurasının növbəti iclası keçiriləcək



Oktyabrın 30-da Bakıda Müstəqil Dövlətlər Birliyinə üzv ölkələrin Müdafiə Nazirləri Şurasının növbəti iclası keçiriləcək. Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, tədbirdə Azərbaycan Müdafiə naziri, general-polkovnik Zakir Həsənov, Rusiya Federasiyasının Müdafiə naziri, ordu generalı Sergey Şoyqu, Belarus Respublikasının Müdafiə naziri, general-leytenant Andrey Ravkov, Qazaxıstan Respublikasının Müdafiə naziri, general-mayor Nurlan Yermekbayev, Özbəkistan Respublikasının Müdafiə naziri, general-mayor Bahodir Kurbanov, Tacikistan Respublikasının Müdafiə naziri, general-polkovnik Mirzo Şerali və Qırğızıstan Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, general-mayor Rayimberdi Duyşenbiyev iştirak edəcəklər. İclasda hərbi əməkdaşlığın hazırkı vəziyyəti və qarşıda duran məsələlər müzakirə olunacaq.

## Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəhbərliyi Cəlilabad və Yardımlı rayonlarında vətəndaşları qəbul ediblər

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu keçirir, onların müxtəlif məsələlərlə bağlı müraciətlərinin, ərizə və şikayətlərinin müsbət həll olunması üçün tədbirlər görürlər. Vətəndaşların qəbulu sədvələnə uyğun olaraq, oktyabrın 29-da Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Cəlilabad, Dövlət Komitəsi sədrinin müavini Gündüz İsmayılov isə Yardımlı rayonunda vətəndaşları qəbul ediblər.



AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, qəbuldan əvvəl Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısı Namiq Zeynalov ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, böyük rəhbərin adını daşıyan Mərkəzdə Ulu Öndərin zəngin və mənalı ömür yolunu əks etdirən eksponatlar və fotoşəkillərlə tanış olublar. Qırxa yaxın vətəndaşın iştirak etdiyi qəbullar zamanı müraciətlər əsasən dini icmaların dövlət qeydiyyatı, dini icmaların fəaliyyəti, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, məscidlərin təmiri və sair məsələlərlə bağlı olub. Müraciətlərin bir qismi yerindəcə həllini tapıb. Araşdırılmasına ehtiyac olan bir sıra məsələlərin qanunvericiliyə uyğun, operativ həlli üçün müvafiq tapşırıqlar verilib. Qəbula gələn vətəndaşlar göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

## Ərdoğan Çeçen: "Qoşulmama Hərəkatına sədrliyi dövründə Azərbaycan dünyada sülhün, sabitliyin bərqərar olmasına böyük töhfələr verəcək"



Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının Bakıda keçirilən XVIII Zirvə Görüşünü televiziya kanalından canlı izləyərək sonsuz qurur hissi keçirdim. Bu tədbirin yüksək səviyyədə təşkili münasibətilə başda Prezident İlham Əliyev olmaqla bütün Azərbaycan xalqını təbrik edirəm. Bu fikirləri AZƏRTAC-a açıqlamasında Ankara Azərbaycan Evinin rəhbəri Ərdoğan Çeçen deyib. Azərbaycanın hər bir nailiyyətinin Türkiyədə də böyük sevinclə qarşılandığını diqqətə çatdıran Ərdoğan Çeçen deyib: "Əminəm ki, qardaş ölkə Qoşulmama Hərəkatına sədrlik etdiyi dövrdə qətiyyətli mövqe nümayiş etdirərək dünyada sülhün və sabitliyin bərqərar olmasına, ədalətin zəfər çalmasına böyük töhfələr verəcək".

## Kərbəladakı iğtişaşlarda 14 nəfər həlak olub, 865 yaralı var

İraqın Kərbəla şəhərində iğtişaşlar zamanı təhlükəsizlik qüvvələrinin böyük insan kütləsinə atəş açması nəticəsində ən azı 14 nəfərin öldüyü, 865 yaralının olduğu bildirilir. Bu məlumatı şəhər xəstəxanalarına istinadla Reuters agentliyi yayıb.

Qeyd olunur ki, bazar ertəsi iraqlılar Baş Nazir Adil Əbdül Mehdinin hökumətinə qarşı etiraz aksiyası keçiriblər. Onlar sosial-iqtisadi problemlərə etirazlarını bildirib, korrupsiyanın aradan qaldırılması tələbi olan şüarlar səsləndiriblər. Ümumilikdə, bu ölkədə oktyabrın 1-dən bəri iğtişaşlarda ölənlərin sayı 250 nəfərə çatıb. Bazar ertəsi axşam Bağdadda keçirilən etiraz aksiyalarına qoşulan Kərbəla şəhərində polis və hərbçilər etirazçılara odlu silahlardan atəş açıblar. Müdafiə Nazirliyi bu insidenti pisləyən bəyanat yayıb və bildirib ki, nümayişçilərə atəş açanlar ordunu təmsil etmirlər. Məlumata görə, hökumətin istefasını tələb edənlərin önündə tanınmış şiə din xadimi Müqtəda əl-Sədr gedir.

# Brüssel "inqilab"a hazırlaşır: xarici siyasətdə dalandan xilas yolları

***Ekspertlərə görə, Avropa İttifaqının (Aİ) xarici siyasətində ciddi dəyişiklik ola bilər. Bunun səbəbi təşkilatın son dövrlərdə üzləşdiyi ziddiyyətlərin dərinləşməsi ilə bağlıdır. Qlobal geosiyasi proseslərə Aİ daha çox kənar müşahidəçi kimi baxır. Faktiki olaraq, heç bir məsələdə Brüsselin iradəsi ciddi təsir göstərmir. Bu böhran vəziyyətindən xilas olmaq üçün Aİ-nin ciddi dəyişikliklər etməli olduğuna inanan ekspertlər az deyil. Avropa Komissiyasının yeni seçilmiş sədri Jozep Borrelin Rusiya ilə bağlı söylədiyi fikirlər bu səbəblərdən maraq doğurub. O, Moskvaya qarşı Avropanın birləşməsini və sanksiyaları qüvvədə saxlamağı tövsiyə edib. Rusiya davranışını dəyişərsə, sanksiyaları ləğv etmək olar. Bu, faktiki olaraq, Vaşinqtonun mövqeyidir. Bundan başqa, Angela Merkel və Ursula von der Leyen kimi J.Borrel də Aİ-də səsverməni yekdillikdən səs çoxluğu qaydasına gətirməyi təklif edib. Bu kimi proseslərin fonunda Aİ-nin xarici siyasəti və geosiyasi vəziyyəti üzərində geniş dayanmaq istərdik.***




## Üç tərəfdən təzyiq: Brüsselin nəfəsi təngiyir

Görünür, Avropa İttifaqı qlobal miqyasda müşahidə edilən dəyişikliklərə daha ciddi yanaşmağa başlayıb. Daha doğrusu, bu prosesə praktiki səviyyədə reaksiya verir. Aİ-ni həssas edən prosesləri iki qrupda cəmləşdirmək olar. Birincisi, Amerikanın Avratlantik məkanını, faktiki olaraq, parçalayan və ya ən azından yeni təhlükəsizlik fəlsəfəsi çərçivəsinə salan riskli davranışları. İkincisi, Yaxın Şərqdə geosiyasi proseslərin yeni dinamika alması. Bu iki prosesin qarşılıqlı təsiri Brüsseli özü üçün əhəmiyyətli olan bir sıra məsələlərdə daha konkret mövqe bildirməyə məcbur edir. Onlardan ilk sırada daxili inteqrasiya dayanır. Brüssel yeni rəhbərlərlə ciddi addımlar atmağa hazırlaşır. Onun məqsədi hüquqi prosedurları elə sadələşdirməkdir ki, Aİ-nin xeyrinə qərarlar qəbul etmək mümkün olsun. Ancaq hələlik üzv dövlətlər arasında fikir ayrılıqları mövcuddur və yekdil qərar almaq məsələsi getdikcə çətinləşir. Bu baxımdan Avropa diplomatiyasının yeni rəhbəri Jozep Borrelin qərarların yekdilliklə deyil, səs çoxluğu ilə qəbul edilməsi ilə bağlı irəli sürdüyü təklif maraqlı görünür.

Avropa Komissiyasının sədri (faktiki olaraq, Aİ-nin Nazirlər Kabinetinin rəhbəri) Ursula von der Leyen və Almaniya Kansleri Angela Merkel də eyni mövqedədirlər. Onlar hesab edirlər ki, üçdəbir və üçdəiki səs çoxluğu ümumi qərar qəbul etmək üçün yetərlidir. Yekdillik təşkilat üçün əhəmiyyəti olan bir sıra qərarların qarşısını ala bilər. Bu ehtiyatlılıq haradan yaranıb?

Onu deyək ki, ekspertlərin qənaətinə görə, Aİ bu dəyişikliyi etsə, onun xarici siyasətində inqilabi yenilik olacaq. Hər şeydən öncə, təşkilatda fərqli mövqe tutan dövlətlərin separatçılıq etmək imkanları məhdudlaşacaq. Məsələn, İtaliya, Macarıstan və ya Polşa təkbaşına veto qoymaq imkanından məhrum olacaq. Belə bir təhlükə getdikcə artır. Çünki meydana elə məsələlər çıxır ki, onları ümumavropa mövqeyinə gətirmək çox çətin olur. Digər tərəfdən də, Amerika Aİ-nin daxilində fikir ayrılığını dərinləşdirməkdədir. "Breksit" buna əyani misaldır. İndi başqa, məsələn, təhlükəsizlik, Çinlə münasibətlər, Rusiya faktoru kimi məsələlərdə Vaşinqtonla Brüsselin maraqları uyğun gəlməyə bilir.

Ekspertlərə görə, Emmanuel Makronun Rusiya ilə Aİ-nin yaxınlaşmasına istiqamətlənmiş cəhdləri bir çox aspektlərdə məhz Vaşinqtonun belə addımları ilə bağlıdır. Fransa Prezidenti hesab edir ki, Amerikanın siyasəti Moskva-Pekin yaxınlaşmasını stimullaşdırır. Bu isə yaxın gələcəkdə Rusiya-Çin tandeminin başçılıq edəcəyi güclü regional təşkilatın formalaşmasına aparıb çıxara bilər. Əslində, Vladimir Putin Şərq İqtisadi Forumu çərçivəsində Vladivostokda bunun ilk siqnalını verdi. Həmin təşkilata Hindistan və Türkiyə kimi güclər də daxil ola bilərlər.

Bu kimi prosesin qarşısını almaq üçün E.Makron Rusiyaya qarşı Aİ-nin siyasətini dəyişməsini tələb edir. Bunun üçün də sanksiyalar ləğv edilməlidir. Sanksiyaların ləğvi Brüsseli Vaşinqtonla üz-üzə qoymaq deməkdir. A.Merkel, J.Borrel, U.von der Leyen bunu istəmirlər. Nəticədə, Aİ daxilində müəyyən gərginlik yaranmış olur.

Bütün bunların fonunda J.Borrelin Rusiyaya qarşı tətbiq olunan sanksiyalar haqqında yenidən fikir bildirməsi aranı qarışdırıb. Xatırladaq ki, 72 yaşlı ispaniyalı diplomat "El Periodico" nəşrinə verdiyi müsahibədə açıq demişdi: "Bizim köhnə düşmənimiz Rusiya yenə deyir ki, "mən buradayam". Və yenə təhlükə yaradır"! Avropa Parlamentinin deputatları bu barədə ondan soruşduqda, J.Borrel cavab verib ki, o, indi də Rusiyanı düşmən hesab edir, lakin İspaniyanın deyil, Avropanın. Və "Mən indi də belə deyirəm" sözləri ilə cavabını yekunlaşdırıb.

Son olaraq J.Borrel Rusiya davranışını dəyişənə qədər ona tətbiq edilən sanksiyaları qüvvədə saxlamağın lazım gəldiyini bəyan edib. Üstəlik, bu məsələdə Avropanı birliyə çağırıb. Ekspertlər hesab edirlər ki, bu cür çağırış, əslində, Aİ-də birliyin çox zəifləməsi ilə bağlıdır. J.Borrel ehtiyat edir ki, hazırkı vəziyyətdə hətta Rusiyaya qarşı da yekdil mövqe tutmaq mümkün olmayacaq.

Bir tərəfdən, ABŞ-ın qeyri-ənənəvi addımları Rusiyanın dünyada nüfuzunu artırır, digər tərəfdən isə, müxtəlif səbəblərdən Moskvaya qarşı sanksiyaların tətbiqini istəməyənlər fəallaşırlar. Məsələn, İtaliya istəmir ki, Rusiyaya qarşı bu dərəcədə sərt mövqe olsun. Onunla Yunanıstan da həmrəydir. Deməli, Rusiyaya qarşı sanksiyaları uzatmaq çətinliklərlə rastlaşa bilər. Ancaq J.Borreli, A.Merkeli və digərlərini səsvermə qaydasını dəyişməyə vadar edən yalnız Rusiya məsələsi deyil.

## Yaxın Şərq: Türkiyənin geosiyasi nüfuzu və Aİ

Ortada Yaxın Şərqdə son zamanlar geniş vüsət alan və Avropanı narahat edən proseslər vardır. Türkiyənin Suriyanın şimalında apardığı hərbi əməliyyat bütün dünyada əks-səda doğurub. Öncə, Qərbdən Ankaranı dərhal cəzalandırmaq çağırışları eşidildi. Sonra A.Merkel və E.Makron tələb etdilər ki, Türkiyə hərbi əməliyyatı dayandırsın. E.Makron hətta ABŞ Prezidentini köməyə çağırdı. İran narazılığını bildirdi. Rusiya obyektiv və təmkinli reaksiya verdi. Dəməşq Türkiyənin "işğalı"ndan bəhs etdi. Ərəb Liqası isə Türkiyəni qınadı, "işğal"dan danışdı. Ekspertlərin fikrinə görə, ərəb xalqları üçün heç bir şey etməyən, İsrailin əlində əsir-yesir olan bu dişsiz təşkilatın başında misirli dayanır və o, başqa cür reaksiya verə bilməzdi.

Qərb KİV-lərində də Rəcəb Tayyib Ərdoğanı kəskin tənqid edən yazılar dərc olunmaqdadır. Onu hətta "qaniçən" adlandırılanlar tapıldı. Bütün bunların fonunda türk ordusu terrorçuları tam zərərsizləşdirməkdədir. Ankara konkret cavab verdi: əməliyyat sona qədər davam edəcək, kimin nə düşünməsindən asılı olmayaraq. Rusiya rəhbərliyi isə BMT TŞ-də Türkiyənin əleyhinə olan sənədə veto qoydu. Vaşinqton da əsgərlərini əməliyyat zonasından çıxardığını bəyan etdi.

Bununla aydın oldu ki, bir sıra dairələrin hay-küyünə baxmayaraq, Türkiyənin qarşısına çıxan ciddi qüvvə yoxdur. Əksinə, dünyanın böyük gücləri onun işinə qarışmırlar və Türkiyə Yaxın Şərqin söz sahibi kimi meydandadır. Brüssel özünə görə bu gedişatdan nəticə çıxarmağa çalışır. Həm də ona görə ki, Aİ-də Macarıstan Türkiyəyə qarşı hazırlanan sənədə veto qoydu. Bolqarıstanın baş naziri Boyko Borisov isə Brüsselə qarşı çıxaraq, Türkiyəyə sərt davranmağın doğru olmadığını açıq dedi. O, məhz Ankaranın miqrasiya prosesinin qarşısını aldığını ifadə etdi.

Üstəlik, B.Borisov Brüsselin Türkiyə ilə sərhəddən uzaq, Bolqarıstanın isə yaxında olduğunu dedi. Yəni Brüsselə nə var, Türkiyə ilə münaqişədən Bolqarıstan əziyyət çəkəcək. Ankara isə miqrantlarla bağlı üzərinə götürdüyü öhdəliyə tam əməl edir: Bolqarıstan sərhədində miqrant problemi yoxdur!

Bütün bu məqamları geosiyasi kontekstdə ümumiləşdirən ekspertlər belə qənaət əldə edirlər ki, "Sabit Yaxın Şərqə ehtiyacı olan Avropanın Türkiyəyə ehtiyacı var. Türkiyəyə ehtiyacı olan Avropa isə, bu gün Rusiyaya möhtacdır" (bax: A thaw in EU-Russia relations is starting. Undeserved detente / "The Economist", 12 oktyabr 2019).

Yəni, faktiki olaraq, Avropa diplomatiyası qapalı dairəyə düşüb. Deməli, "genişlənən Atlantika, yüksələn Çin və Yaxın Şərqdəki böhran Avropa ilə Rusiyanı bir-birinə qarşı itələyir" (bax: əvvəlki mənbəyə). Lakin real ziddiyyət mövcuddur - Avropa və Rusiyanın Baltikdən tutmuş Qafqaza qədər bir sıra ölkələr üzrə fikir ayrılıqları var. Ukraynada isə onlar, az qala, bir-birinə düşmən kəsiliblər. Bu baxımdan J.Borrelin fikirləri Rusiyaya "düşmən" bir siyasətçinin münasibəti deyil, əsası olan tezisdir. O halda Brüssel xarici siyasətdə hansı yolu seçməlidir?

Belə hiss olunur ki, bunu hələ Aİ rəsmiləri də bilmirlər. Onlar yaranmış ziddiyyətli vəziyyətdən çıxış yolu axtarırlar. Bəzən müzakirə və mübahisələr aparırlar, ancaq real nəticə yoxdur. Belə təəssürat yaranır ki, Qərb ekspertlərinin tez-tez "Avropa dünya nəhəngidir" deməsinə baxmayaraq, Avropa səmərəli bir mövqe nümayiş etdirə bilmir. O, sanki Amerika-Rusiya-Çin dairəsində "fırlanır". İndi bu güclərin hər biri Avropaya öz iradəsini diktə etməyə çalışırlar. Əlbəttə, Avropanın bir çox sahələrdə gücü böyükdür. Lakin çox əhəmiyyəti olan bir məsələdə olduqca zəifdir və bəlkə də ondan çox uzaqdır - Ədalətli olmaqda! Avropanı uduzduran bu zəiflikdir!

***Newtimes.az***

# Təhsilin kəmiyyət və keyfiyyət göstəriciləri yüksəlib

*Ölkənin təhsil sisteminin göstəriciləri "Qlobal Rəqabətlilik İndeksi"ndə növbəti dəfə yaxşılaşıb*



***Bu gün ölkəmizdə aparılan abadlıq-quruculuq işləri, iqtisadi islahatlarla yanaşı, elmə, təhsilə də dövlət tərəfindən xüsusi diqqət ayrılır. Dövlətin potensialının güclənməsi, dünyaya inteqrasiya prosesinin sürətlənməsi elminin inkişafı ilə sıx bağlıdır. Dünyada gedən qloballaşma və inteqrasiya prosesləri ölkəmiz üçün yüksək elmi potensiala malik mütəxəssislərin hazırlanmasını tələb edir. İqtisadiyyatın inkişafının əsasında elmi tərəqqi dayandığından, prioritetlər düzgün seçilməli və onun üzərində işlər müəyyənləşmiş xətt üzrə aparılmalıdır.***

Elm və təhsilin inkişafı və bu sahədə mövcud olan bəzi problemlərin aradan qaldırılması istiqamətində ardıcıl işlər görülməkdədir. Dövlət başçısı İlham Əliyevin "Azərbaycan elmində islahatların aparılması ilə bağlı Dövlət Komissiyasının yaradılması haqqında" Sərəncamı bir sıra problematik məsələlərin həllində, elmi tədqiqatların müasir standartlar səviyyəsində qurulmasında, ölkənin elmi kadr potensialının artırılması və onun sosial müdafiəsinin gücləndirilməsində əhəmiyyətli rol oynadı. Bu gün Azərbaycanın elmi beynəlxalq elm məkanına inteqrasiyası prosesi güclənib. Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında 2009-2015-ci illərdə elmin inkişafı üzrə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı Dövlət Proqramı" elm sahəsində həyata keçiriləcək islahatların konseptual əsaslarını özündə əks etdirən növbəti addım oldu. Elmin inkişafını nəzərdə tutan Milli Strategiya Azərbaycan elminin respublikanın iqtisadi inkişafında rolunun artırılmasında, yüksək ixtisaslı kadrların hazırlanmasının təmin edilməsində, mühüm sosial-iqtisadi və ictimai-siyasi vəzifələrin həllində rol oynadı. Artıq Azərbaycanda elmin hüquqi-normativ bazası yaradılıb. Bu və digər sərəncamlar, dövlət proqramlarının icra və tətbiqi Azərbaycan elminin inkişafını sürətləndirir. Bütün bunlarla yanaşı, "Elm haqqında" qanun layihəsi elmi fəaliyyət sahəsində dövlət siyasətinin məqsəd və prinsiplərini, elmi fəaliyyətin subyektlərinin və iştirakçılarının hüquq və vəzifələrini, elmi fəaliyyətin təşkilatihüquqi əsaslarını müəyyənləşdirmiş oldu. Həyata keçirilən tədbirlərin və islahatların, məntiqi nəticəsi olaraq, bu gün ölkənin təhsil sisteminin göstəriciləri "Qlobal Rəqabətlilik İndeksi"ndə növbəti dəfə yaxşılaşıb. Belə ki, Dünya İqtisadi Forumu tərəfindən bu günlərdə yayılmış "Qlobal Rəqabətlilik İndeksi 2019" hesabatında Azərbaycan ötənilki göstərici ilə müqayisədə 11 pillə irəliləyərək, 141 ölkə arasında 58-ci yeri tutub. Bu göstərici 12 indikator əsasında, müəyyən edilib ki, bunlardan 8-i üzrə ölkəmiz MDB ölkələri arasında yüksək nəticələr əldə edib. Təhsilin kəmiyyət və keyfiyyət göstəricilərini ölçən "Bacarıqlar" ("Skills") kateqoriyası üzrə Azərbaycan bu il 6 pillə irəliləyərək 48-ci yerdə, "İnnovasiya bacarığı" ("İnnovation Capability") üzrə isə, bu il 3 pillə irəliləyərək 68-ci yerdə qərarlaşıb. Belə ki, "Bacarıqlar" kateqoriyasının tərkib hissəsi olan işçilərin peşəkar inkişafı göstəricisi üzrə Azərbaycan 22 pillə irəliləyərək 34-cü, peşə təhsilinin keyfiyyəti göstəricisi üzrə 6 pillə irəliləyərək 43-cü, bacarıqlı işçiləri tapmaq asanlığı göstəricisi üzrə 2 pillə irəliləyərək, 29-cu yerlərdə qərarlaşıb. Tədrisdə tənqidi düşüncə göstəricisi üzrə isə, ölkəmiz 7 pillə irəliləyərək, 20-ci yerdədir. "İnnovasiya bacarığı" kateqoriyasında Azərbaycan beynəlxalq müştərək ixtiralar üzrə 3 pillə irəliləyərək 96-cı, elmi nəşrlər üzrə 3 pillə irəliləyərək 105-ci, patent ərizələri üzrə 3 pillə irəliləyərək, 105-ci, elmi-tədqiqat institutlarının qabaqcıllıq indeksi üzrə 8 pillə irəliləyərək, 78-ci yerlərdə qərarlaşıb.

Bu gün ölkəmizin qarşısında duran bütün əsas vəzifələr uğurla icra edilir. Azərbaycanın uğurlu inkişafı təmin edilir, təhlükəsizlik yüksək səviyyədə qorunur və ictimai-siyasi sabitlik möhkəmlənir.

Ölkə başçısının rəhbərliyi ilə son 16 il ərzində Azərbaycanda bütün sahələrdə yüksək nailiyyətlər qazanılıb, bölgələrdə sosial-iqtisadi inkişafla bağlı infrastruktur layihələri, köklü iqtisadi islahatlar həyata keçirilib. Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində, ölkəmiz getdikcə daha da yeniləşir, iqtisadi islahatları reallaşdıran və innovativ inkişafa yol açan dövlətə çevrilir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Azərbaycanın turizm imkanları dünyada tanıdılır



***Müstəqilliyini bərpa etdikdən sonra yeni ictimai-iqtisadi inkişaf yoluna qədəm qoyan, açıq bazar iqtisadiyyatı sisteminin tələbləri əsasında inkişaf edən Azərbaycan beynəlxalq aləmə inteqrasiya prosesləri çərçivəsində dünya dövlətləri ilə iqtisadi əlaqələrini genişləndirir. Ölkəmizdə bu əlaqələrin bir qolu olan beynəlxalq turizm münasibətlərinin inkişafı istiqamətində də təqdirəlayiq işlər görülmüşdür. Turizm artıq bütün dünyada ən gəlirli sahələrdən birinə - geniş və sürətlə inkişaf edən iqtisadi sektora çevrilib. Dünya təcrübəsi göstərir ki, turizm inkişaf etmiş regionlarda dövlət və əhali gəlirlərinin 30%-ə qədəri turizm fəaliyyəti ilə bağlıdır.***

Turizmin inkişafına dair dövlət proqramları ölkədə turizmin rastlaşdığı problemlərin həll edilməsi və turizm sahəsinin daha da inkişafını təmin etmiş oldu. Ölkəmizdə turizmin inkişafına münbit şərait yaradıldı, beynəlxalq turizm bazarına inteqrasiyanın təmin olunmasının əsası qoyuldu və milli turizm kompleksinin rəqabətə davamlılığı yüksəldi. Azərbaycanın turizm imkanları dünyada tanıdılır. Xarici dövlətlərdə Azərbaycanın müxtəlif və zəngin folkloru, mətbəxi və ənənələri ilə yaxından tanış olurlar. Ölkəmizdə turizmin inkişafının dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrildiyi mərhələdə Azərbaycan turistlər üçün cəlbedici məkan olaraq diqqətdədir.

Azərbaycanın son illər bir sıra beynəlxalq mədəni-kütləvi tədbirlərə ev sahibliyi etməsi də, buraya xaricdən istirahətə gələnlərin sayını dəfələrlə artırıb. Qonaqlar tədbirlərdə iştirak etməklə yanaşı, ölkənin müxtəlif məkanlarındakı müasir turizm obyektlərində dincəlir, tarixi abidələri ilə tanış olur və əsrarəngiz təbiətini seyr edirlər.

## AZƏRBAYCAN RUSİYALI TURİSTLƏRİN QIŞ AYLARINDA İSTİRAHƏT DESTİNASİYASI OLARAQ SEÇDİKLƏRİ ÖLKƏLƏR ARASINDADIR

Ölkəmizdə yay turizmi ilə yanaşı, qış turizm bazasının yaradılması, mövsümlük anlayışını aradan qaldırmaqla, davamlı turizmə nail olmağa şərait yaratdı. Belə ki, turizm sahəsində məqsədli şəkildə həyata keçirilən layihələr qış turizminin inkişafına da yeni yollar açdı. "Şahdağ" Qış-Yay Turizm Kompleksinin yaradılması Azərbaycanın qış turizminin inkişafında uğurlara gətirib çıxardı. Qusar rayonunun mərkəzindən 32 kilometr məsafədə "Şahdağ" Milli Parkının ərazisində yerləşən "Şahdağ" Qış-Yay Turizm Kompleksi müasir tələblərə cavab verir. Dövlətimizin başçısının tapşırığına uyğun olaraq, "Şahdağ" Qış-Yay Turizm Kompleksinə çəkilən avtomobil yolu genişləndirilmiş, yeni körpülər salınmış, torpaq sürüşmələrinin qarşısının alınması üçün mühafizə tədbirləri həyata keçirilmiş və digər müvafiq işlər görülmüşdür. Kompleksin ərazisi ekoloji təmizliyi, flora və faunasının zənginliyi ilə seçilir. Turizm obyekti dəniz səviyyəsindən 1300-2300 metr yüksəklikdədir. Turizm kompleksinin əsas hissəsi isə, dəniz səviyyəsindən 1440-1640 metr yüksəklikdəki yaylaqda yerləşir. Azərbaycanda və ümumiyyətlə, dünyada ən mükəmməl layihələrdən biri olan "Şahdağ" Qış-Yay Turizm Kompleksi oxşar istirahət mərkəzlərindən bənzərsizliyi ilə fərqlənir. Bu layihənin reallaşdırılması respublikamızda dağ-xizək idmanı və digər qış idman növlərinin inkişafı üçün hərtərəfli imkanlar açmışdır.

Oktyabrın 29-də Rusiyanın Moskva şəhərində "Qış mövsümündə Azərbaycanda turizm imkanları" mövzusuna həsr olunmuş seminar təşkil olunub.

Qeyd edək ki, seminarda Rusiyanın 100-ə yaxın turoperatoru, turagenti və turizm sənayesinin nümayəndələri iştirak ediblər. "Şahdağ" Turizm Mərkəzi və "Tufandağ" Qış-Yay Turizm İstirahət Kompleksi xizək kurortlarının nümayəndələri tərəfindən Azərbaycanın qış turizmi imkanları, dağ-xizək mərkəzlərində təqdim olunan xidmətlər haqqında ətraflı məlumat verilib.

Tədbirdə, həmçinin, Qəbələdəki sağlamlıq və özünübərpa turizmi üzrə fəaliyyət və xidmətlərindən danışılıb, Qəbələ şəhərinin qədim müalicə adət-ənənələrindən və sanatoriyalarından bəhs olunub.

Rusiyalı turistlərin qış aylarında istirahət destinasiyası olaraq seçdikləri ölkələr arasında Azərbaycan ilk sıralardadır, həmçinin, dekabr ayından mart ayınadək davam edən qış turizm mövsümündə ölkəmizə gələn Rusiyadan olan ziyarətçilərin sayı ildən-ilə artmaqdadır.

2019-cu ilin yanvar-sentyabr dövründə Azərbaycana səfər edən rusiyalı turistlərin sayı 724730 nəfər təşkil edib ki, bu da, ötən ilin eyni dövrünə nisbətdə 5,31 % artım deməkdir.

Azərbaycanın qonaqpərvərliyi, tolerantlığı, turizm infrastrukturunun yaradılması və yeni otellərin inşası turistləri cəlb edir. Digər amillərindən biri də, məhz ölkədə hökm sürən ictimai-siyasi sabitlikdir. Bu baxımdan, Azərbaycana gələcək turistlərin sayının artacağı şübhə doğurmur. Azərbaycan saysız turistləri qarşılamaq və lazımi səviyyədə yerləşdirmək imkanına malik olan turist ölkəsidir.

***ZÜMRÜD***

# Azərbaycanın bu il ən çox məhsul göndərdiyi Körfəz ölkələrinin adları açıqlanıb



Cari ilin 9 ayında Azərbaycanın ən çox məhsul ixrac etdiyi Körfəz ölkələri sırasında ilk üçlükdə İran, Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) və Qətər qərarlaşıb. Dövlət Gömrük Komitəsinin məlumatında deyilir ki, İrana ixracın dəyəri 27,7 milyon dollar, BƏƏ-yə 14,3 milyon dollar, Qətərə 1 milyon dollar olub. İrana ixracın dəyərində artım, Qətər və Birləşmiş Ərəb Əmirliklərinə isə azalma müşahidə edilib.

# Türkiyəli alim: "səhiyyə sahəsində Azərbaycanla səmərəli əməkdaşlıqdan qürur duyuruq"



Azərbaycan hər il Türkiyədə təşkil olunan EndoBridge (Endokrinoloqlar arasında körpü) beynəlxalq illik konfranslarda böyük heyətlə təmsil olunur. Bütün sahələrdə olduğu kimi səhiyyədə də Azərbaycanla səmərəli əməkdaşlıqdan qürur duyuruq. Bu fikri AZƏRTAC-a açıqlamasında EndoBridge konfransının təsisçisi, professor Okan Bülent Yıldız ifadə edib. Antalyada keçirilən builki EndoBridge VII beynəlxalq konfransın nəticələrini yüksək dəyərləndirən professor O.Yıldız qeyd edib ki, endikrinologiya - daxili sekresiya vəzlərinin (hormon ifraz edən orqanlar) müayinəsi və müalicəsi, bu xəstəliyin səbəblərinin öyrənilməsi bu tədbirin gündəliyində duran ən aktual məsələ olub. Məruzə və təqdimatlar bir neçə dilə tərcümə olunub. Məqsəd endikrinologiya yeniliklərinə dair təcrübəni genişləndirməkdir. Qeyd edək ki, VIII EndoBridge beynəlxalq konfransı 2020-ci il oktyabrın 22-25-də Antalyada keçiriləcək.

# İşğalçılıq siyasətinin uzanması Ermənistanın məhvini tezləşdirə bilər

***Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli istiqamətində müəyyən qədər fasilələr yaranıb. Amma bəzi mətbu orqanlarda 7 rayonun qaytarılacağı ilə bağlı müəyyən fikirlər səslənir, yazılar qeyd olunur, ekspertlərin şərhləri və təhlilləri verilir. Söhbət etdiyimiz müsahiblərimiz Ermənistanın işğalçılıq siyasətinin davam etməsinin regionda sülhün və əmin-amanlığın pozulmasına gətirib çıxaracağını və bunun baş verməməsi üçün işğalçı ölkəyə münaqişənin həllini tezləşdirməsinin vacib olduğunu bildirirlər.***

Politoloq Elşad Mirbəşiroğlu:

**"Azərbaycan münaqişə ilə bağlı siyasi üstünlükləri çoxdan əldə edib "**



- Bugünkü reallıq ondan ibarətdir ki, Ermənistan tərəfi özünün işğalçılıq mövqeyindən və siyasətindən əl çəkmək fikrində deyil. İki-üç gün öncə, Ermənistanın müdafiə naziri Qarabağ məsələsi ilə bağlı KİV-in suallarını cavablandırarkən bildirdi ki, Qarabağ məsələsi həll olunub, yəni Ermənistan heç vaxt Qarabağdan əl çəkməyəcək. Bugünkü Ermənistan hakimiyyətinin, konkret olaraq, Paşinyanın mövqeyi ondan xəbər verir ki, Ermənistan tərəfi qeyri-konstruktiv mövqeyində israrlıdır və bundan sonra da israrlı olacaqdır. Azərbaycan münaqişə ilə bağlı siyasi üstünlükləri artıq çoxdan əldə edib və Azərbaycanın bu istiqamətdə diplomatik səyləri də yaxşı nəticələr verir. Beynəlxalq ictimai fikir bu gün Azərbaycanın xeyirinədir və Azərbaycan bütün beynəlxalq tirbunalardan istifadə edərək, öz obyektiv mövqeyini çatdırmaq yolu ilə beynəlxalq ictimai fikrə, davamlı olaraq, təsirlərini artırır. Bütün bunlar, təbii ki, yaxşıdır və Azərbaycanın xeyirinədir. Amma Ermənistanın mövqeyi məsələyə nikbin baxmağa imkan vermir. Bununla yanaşı, qeyd etmək lazımdır ki, Azərbaycan özünün beynəlxalq aləmdə münaqişə vəziyyəti ilə bağlı mövqelərini möhkəmləndirməklə, siyasi potensialını artırmaqla, işğalçı Ermənistana beynəlxalq təzyiqlərin artırılmasını nail ola bilər. Bu halda, hesab edirəm ki, Qarabağətrafı rayonların qaytarılması real müzakirə mövzusu olacaqdır.

Siyasi şərhçi Azər Həsrət:

**"Azərbaycanın ərazi bütövlüyü mübahisə və müzakirə mövzusu ola bilməz"**



- İşğal faktorunun aradan qaldırılması üçün, əlbəttə ki, Azərbaycanın beynəlxalq hüquq çərçivəsində təklif etdiyi fikirlər diqqətə alınmalıdır. Nəinki 7 rayon, ümumiyyətlə, o torpaqların hamısı azad edilməlidir. Yəni Ermənistan anlamalıdır ki, Azərbaycan torpaqlarından birdəfəlik çıxmalıdır. Əgər Ermənistan tərəfi Dağlıq Qarabağda ermənilərin qalıb normal yaşamasını istəyirsə, bu təklifə mümkün qədər tez razılıq verməlidir. Amma Ermənistan bunu etməyə ciddi maraq göstərmir. Ona görə də, Azərbaycan öz bildiyi üsullarla bu problemi kökündən həll etməyə girişməlidir. 7 rayonun qaytarılacağı ilə bağlı fikirlərin səslənməsinə gəlincə, bizim təkcə 7 rayonumuz işğal edilməyib ki, yəni bunu, birmənalı tərzdə hər kəs bilməlidir. Mərhələli həll məsələsindən söhbət gedirsə, onda bəli, ilkin mərhələdə 7 rayonun qaytarılması vacibdir. Yəni Ermənistan ilkin mərhələdə 7 Qarabağətrafı rayondan öz qoşunlarını çəkir, Dağlıq Qarabağda ermənilər qalıb yaşamaqda davam edir və Dağlıq Qarabağın statusu məsələsi ikinci mərhələdə həll edilir. Azərbaycan bu təklifi, əlbəttə ki, yaxşı qəbul edir və etməkdə də davam edəcəkdir. Yəni Azərbaycan tərəfi mümkün olan bütün güzəştləri artıq edib və bundan artıq güzəştə gedilməsi üçün yer yoxdur. Ermənistan, sadəcə olaraq, bu prosesi uzatmaqla, həm özünə, həm də Azərbaycana çox ciddi ziyan verməkdədir. Ona görə də, Ermənistan mümkün qədər tez - istər mərhələli şəkildə, istərsə də kompleks şəkildə bu problemin həllinə razılaşmalıdır. Təbii ki, bütün hallarda Azərbaycanın ərazi bütövlüyü mübahisə və müzakirə mövzusu ola bilməz.

***GÜLYANƏ***

# Dəstək üçün Paşinyan satqın axtarır

***Nikol Paşinyan hakimiyyətini xalqın dəstəyi ilə qazandığını göstərmək istəsə də, əslində, xəyanət sayəsində hakimiyyəti ələ keçirib. Daha doğrusu, özündən əvvəlki hakimiyyətin xəyanətkarları sayəsində. Ətrafında təcrübəli kadrları olmayan baş nazirin əsas vəzifələrə xainləri təyin etməsi də təsadüfi deyil. Çünki onu parlamentdə baş nazir xainlər seçməli idilər. Həm də, axı, komandasının və onu dəstəkləyən müxalif qüvvələrin səsləri kifayət qədər deyildi. Paşinyan yanına toplaşanları açıq şəkildə təşviq etməsi də bunu təsdiq edir.***



İndi Ermənistanın Konstitusiya Məhkəməsində xainləri axtarmaq vaxtı gəlib çatıb. Paşinyan da heç bu taktikasından əl çəkmək fikrində deyil. Amma bilməlidir və çox güman ki, onun özünün də həmin xainlər tərəfindən piz vəziyyətə qoyulacağını və hakimiyyətinə son qoyulacağını da yaxşı bilir.

Paşinyana bumeranq effektini xatırlatmaq əbəsdir. Məntiqi nəticə budur ki, bu xainlər sabah ona xəyanət edəcəklər. Bumeranq effekti, artıq bu gün baş nazir tərəfindən hiss olunur da. Köhnə hakimiyyətlə, illər boyu əlaqədə olanlar ona xəyanət edirsə, az bir zaman fasiləsində ona qulluq edən komanda yoldaşlarının xəyanət etməyəcəyinə kim zəmanət verə bilər? Ermənistanın baş nazirini daxildən yeyən qurdun təsiri nəticəsində şübhələr Paşinyanı içəridən gəmirməkdədir. Bu gün baş nazirin komandasından hesab olunanların, baş nazirə heç vaxt güzəştə getməyəcəyinə, istənilən anda onu qınaq obyektinə çevirrməyəcəyinə və atəşə tutmayacağına kimsə zəmanət verə bilməz. Paşinyanın daxilindəki şübhələrin, artıq onu sakit buraxmadığı tam tərzdə özünü büruzə verir. Görünən və görünməyən cangüdənlərinin sayının həm özü, həm də bütün ailə üçün xeyli sayda artması da təsadüfi deyil.

Bu yolu davam etdirmək, hakimiyyətini bacardığı qədər uzatmaq üçün baş nazirin ölkədə monarxik idarəetmə sistemi qurması göz qabağındadır. Xalqdan asılı olmasın deyə, Nikol güc strukturlarına arxalanmağı üstün hesab edir, çünki ona ictimai dəstək kəskin şəkildə azalıb və artıq yox dərəcəsindədir. Həm də Paşinyan şəxsi təcrübəsindən də gözəl bilir ki, xainlərə güvənə bilməz. Bilir ki, onlar hər an xəyanət edə bilərlər. Bu sistem, bu monarxiya ayrıca bir növ gözətçi kimi daim nəzarət mexanizmini işə salmaq məcburiyyətindədir. Təbii ki, mütləq hakimiyyət şəraiti diktatoru tamamilə həssas edir və geniş yayılmış qarşılıqlı inamsızlıq şəraiti ölkəni idarə etmək üçün normal hal və normal atmosfer hesab olunmur.

Ali ideyalar, yüksək fikirlər, ölkənin inkişaf planları, vətəndaşların ləyaqətli həyatı haqqında pafoslu çıxışlar, və hətta komanda yoldaşlarının xəyanət qorxusu ilə də ölkəni idarə etmək olmur və Paşinyan indi, bax, belə bir çətin durumdadır. Bu durum get-gedə inkişaf etməkdə davam edir. Paşinyan ölkədəki bütün güc strukturlarını ələ keçirməyə tələsməklə hakimiyyətdə olma müddətini artırqmağa çalışdığı bəlli olur. Sonda onu qorumaq və hakimiyyətini gücləndirmək üçün bu gücün nəyə görə daha çox əldə edildiyini ermənilər özləri başa düşməli idilər.

Paşinyanın ona sadiq, nə vaxtsa ona xəyanət etməyəcək, müxtəlif sınaqlardan keçmiş yaxın bir komandası varmı? Xeyr, yoxdur. Əlbəttə ki, belə bir vəziyyət ölkənin inkişafı üçün arzuolunmaz olsa da, belə bir vəziyyət artıq Ermənistan reallığıdır. İndi investisiya arzusunda olan Paşinyan bilmirmi ki, kapital qoyuluşu belə bir şəraitdə tamamilə mümkünsüzdür və bu, bir xülyadır? Bilmirmi ki, heç bir iş adamı bu qədər xəyanətlərin hökm sürdüyü, qeyri-sabit bir ölkəyə sərmayə yatırmaz? Əlbəttə, bilir. Amma bilə-bilə, bu şəraitə rəvac verir. Görəsən, niyə rəvac verir? Çünki o özü hələ də xain və xəyanətkar axtarışındadır. Hələ də axtarır və xəyanətlər hesabına əldə etdiklərinin sırasını yenə də artırmaq istəyir. Həm də, bir tərəfdən də, qorxur və bu xəyanətkarlardan da ehtiyatlanır.

Nümayişlərdə ağız dolusu güç strukturlarına xalqa qoşulmaq təklifi edən Paşinyan, özü hamıdan yaxşı bilir ki, hüquq-mühafizə orqanlarına, güc strukturlarına güvənməyin heç bir mənası yoxdur. İstənilən anda, Ermənistanın güc strukturları hakimiyyəti qoyub, əks- istiqamətdə keçə bilər və Paşinyan buna da öz təcrübəsində rast gəlib. Bütün bunların fonunda, erməni baş nazir hələ də dəstək axtarır və dəstək axtarışında yalnız xainləri öz komandasına cəlb edir, hətta yeni satqınlar qazanır da. Amma bu xainləri və satqınları qazandıqca, özünü bir o qədər də dərin quyuya sürüklədiyini özü hamıdan yaxşı bilir.

***İnam HACIYEV***

# Dağlıq Qarabağın azərbaycanlı icması Lill Universitetinin rəhbərliyinə etiraz məktubu göndərib

***Dağlıq Qarabağdakı qondarma rejimin yaratdığı "Azad Vətən" adlı "partiya"nın təşkilatçılığı ilə Fransanın Lill Universitetinin bir qrup professor və müəllimi Ermənistanın işğalı altında olan Azərbaycan ərazilərinə qanunsuz səfər edib. Ermənistan mediasının verdiyi məlumata görə, nümayəndə heyətinin tərkibində müxtəlif sahələr üzrə elm adamları yer alıb. Qanunsuz səfər zamanı Lill Universitetinin əməkdaşları "Şuşa Texnologiya Universiteti"ndə olub və gələcək "əlaqələr"ə dair fikirlər səsləndiriblər.***

Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icmasından AZƏRTAC-a daxil olan məlumatda bildirilir ki, qədim ənənələri olan Lill Universitetinin bir qrup professor və müəlliminin Azərbaycanın işğal olunmuş ərazilərinə qanunsuz səfər etməsini ciddi məsuliyyətsizlik və beynəlxalq hüquqa hörmətsizlik kimi qəbul edir. Həmçinin bu "səfər" dünyada elektronika və nanotexnologiyalar sahəsində elmi kəşflərə imza atan bir universitetin nüfuzuna ciddi şəkildə xələl gətirir. Necə ola bilər ki, belə bir universitetin professor-müəllim heyəti hansı ərazilərə gətirildiklərindən xəbərsiz olsun? Görəsən, bir dəfə də olsun bu insanlar internetdə Dağlıq Qarabağın tarixi, Ermənistanın bu əraziləri necə işğal etməsi haqqında məlumat toplamağa çalışıblarmı? Ən əsası, Lill Universitetinin müəllim və professorlarının Fransanın Azərbaycanın ərazi bütövlüyü ilə bağlı mövqeyindən və Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğundan xəbərləri varmı? Əgər yoxdursa, bu, elm adamları üçün həqiqətən utanc gətirən məsələdir. Yox, əgər Lill Universitetinin professorları Fransanın mövqeyini bilə-bilə Dağlıq Qarabağa qanunsuz səfər edirlərsə, deməli, bu, həm də Fransanın rəsmi mövqeyinə hörmətsizlik kimi qəbul olunmalıdır.

Digər tərəfdən, Fransa ATƏT-in Minsk qrupunda həmsədr ölkə kimi Ermənistan ilə Azərbaycan arasında vasitəçilik missiyası həyata keçirir. Belə olan halda Lill Universitetinin müəllim və professorlarının Dağlıq Qarabağa qanunsuz səfər etmələri həm də bu ölkənin danışıqlarda tərəfsiz vasitəçi nüfuzunu şübhə altında qoyur. Biz, Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması Fransanın Lill Universitetinin rəhbərliyinə də öz etirazımızı bildiririk. Hesab edirik ki, sözügedən universitetin rəhbərliyi Azərbaycanın Dağlıq Qarabağ bölgəsindən qovulmuş azərbaycanlı sakinlərin təbii insan hüquqlarına təhqir hesab edilən bu qanunsuz səfərlə bağlı ciddi tədbirlər görəcək və bu kimi halların təkrarlanmasına yol verməyəcək.

## Bərdə sakininin evindən narkotik vasitələr götürülüb

Daxili işlər orqanlarının əməkdaşları narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslərin müəyyənləşdirilərək məsuliyyətə cəlb olunmaları istiqamətində növbəti uğurlu əməliyyat tədbiri keçiriblər. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş Narkotiklərlə Mübarizə İdarəsinin Qərb Bölgəsində Regional Şöbəsi və Bərdə Rayon Polis Şöbəsi əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri birgə əməliyyat-axtarış tədbirləri nəticəsində Bərdə şəhər sakini Ş.Əzizovanın evindən 75 qramdan artıq heroin, tiryək, marixuana, 50 qramdan artıq metamfetamin, 45 ədəd metadon, 16 ədəd ekstazi həbi, həmçinin tiryək və marixuana aşkar edilərək götürülüb. Faktla bağlı araşdırma aparılır.

# Emin Milli: "Onların populizminin bir qəpik qiyməti yoxdur"

*"Meydan" TV-nin sabiq rəhbəri Əli Kərimlini hədəfə aldı*



**AXCP sədri Əli Kərimlinin məram və məqsədlərini anlamayan insanları itaətsizliyə çağırması, xüsusilə, 19 oktyabr icazəsiz aksiyasından sonra daha da azğınlaşması, növbəti qanunsuz çağırışlar etməsi, nəinki iqtidar, eləcə də, müxalifətyönlü təmsilçilər tərəfindən də sərt şəkildə qınanılır, ona qarşı müxtəlif ittihamlar irəli sürülür. Artıq sosial şəbəkələrdə aktiv olan sadə vətəndaşlar Ə.Kərimlinin azğınlığına qarşı etiraz səslərini ucaldır, onu ölkədəki ictimai-siyasi sabitliyi pozmaqda suçlayır, həmçinin, bu addımlarının nəticəsiz qalacağını vurğulayırlar.**

## "İstənilən tənqidə və fərqli yanaşmaya görə sənə satqın damğası vururlar "

Bu arada, vaxtilə müxalifətyönlü və xarici donorların yardımı ilə idarə edilən, sifarişlər əsasında Azərbaycan dövləti əleyhinə fəaliyyət göstərən "Meydan" TV də dağıdıcılıq və anarxik çağırışlara yer ayırır, AXCP sədrinin, eləcə də, "Milli Şura" funksionerlərinin anormal çağırışlarını tirajlayır. Digər maraqlı məqam budur ki, adıçəkilən "TV"-nin sabiq rəhbəri, hazırda siyasətdən getdiyini və şəxsi həyatını yaşadığını bəyan edən E.Milli baş verən hadisələr kontekstində fikrini paylaşıb və həmin fikrində, başda Ə.Kərimli olmaqla, onun yandaşlarını populizmdə ittiham edib, eləcə də, həmin populizmlərinin nəticəsiz qalacağını bildirib. Üstəlik, E.Milli xatırladıb ki, vaxtilə onu dəstəkləyənlərin indi xəyanətdə suçlamaları, satqın adlandırmaları həmin şəxslərin daxilərindəki çirkablıqları daha çox aşkar edir. Misal üçün, "Bir qrup insanlar özlərini elə aparırlar ki, güya indi inqilab olacaq, amma kimsə bunun qarşısını alır. İstənilən tənqidə və fərqli yanaşmaya görə sənə satqın damğası vururlar " deyə qeyd edən E.Milli ona qarşı hücuma keçən tərəfləri də hədəfə alıb.

## "Cəmi 300-400 nəfərin küçəyə çıxması inqilabın nə qədər uzaqda olduğunu göstərir"

O, həmçinin, bildirib ki, siyasi dəyişikliklərin "inqilab", icazəsiz yürüşlər və qanunları pozmaq yolu ilə əldə etməyi düşünmək doğru seçim deyil: "...Bunu bilməyən siyasi savadsızlar isə, bu xalqa heç zaman heç nə verə bilməzlər. Onların populizminin bir qəpik qiyməti yoxdur. Cəmi 300-400 nəfərin küçəyə çıxması inqilabın nə qədər uzaqda olduğunu göstərir. Bunu görməyənlər siyasi cəhətdən kordurlar".

Bu fakt isə, həm də belə bir nəticəyə gəlməyə kifayət qədər zəmin yaradır - uzun illər radikalizm və dağıdıcılıq üzərindəki populist çıxışları ilə küçə təfəkkürünə malik "liderlərin" cəhdləri əbəs olmaqla yanaşı, vaxtilə onlarla bir olanlar da yollarını ayırır, belə bir mənfur siyasətin uğursuz olacağını etiraf edirlər. Bu baxımdan, E.Millinin qeydlərindən, həm də belə nəticə hasil etmək olar ki, o, həmin vasitə ilə Ə.Kərimlinin anarxik çağırışlarını pisləyir və aldadılmış insanları onun yalanlarına uymamağa çağırış edir.

*Rövşən RƏSULOV*

# Rəsul Quliyevdən Əli Kərimliyə: "O, multiplikasiya qəhrəmanıdır"

*Eks-spiker AXCP sədrini ələ salmaqda davam edir*



**ABŞ-da yaşayan eks-spiker Rəsul Quliyev AXCP sədri Əli Kərimlini növbəti dəfə hədəfə alaraq, onu multiplikasiya qəhrəmanına (cizgi filmi) bənzədib. AXCP - "Milli Şura" cütlüyünün icazəsiz aksiyalarını, mitinq keçirmək cəhdlərini, bütövlükdə isə təxribatçılıq əməllərini pisləyən R.Quliyev onun və ətrafının sayıqladığını bildirib.**

"2013-cü ildən "prezident seçkisini 66 faizlə udmuşuq" deyən AXCP üzvlərinin bir neçə ay həmin o, multipikasiya qəhrəmanına "cənab prezident" deyə müraciət etmələrindən başlanan sayıqlama, çox təəssüflər ki, hələ də davam edir" deyə qeyd edən eks-spiker ölkə rəhbərliyinin apardığı islahatları da müsbət qiymətləndirib.

## Eks spiker: "Heç 100 ildən sonra da qələbə çalmaq şansları yoxdur"

Qeyd edək ki, bu eks-spikerin Ə.Kərimlini ittiham etməsi məsələsi birinci dəfə deyil. Ümumiyyətlə, o hələ bir neçə il öncə, "Milli Şura"nı kəskin şəkildə ittiham etdikdən sonra oranı tərk etmişdi və həmin ərəfədən zaman-zaman Ə.Kərimlinin oyunbazlıqlarını özünəməxsus tərzdə, ironiyalarla ələ salır. Misal üçün, xatırlaya bilərik ki, hələ iki il öncə, R.Quliyev aldıqları seçki və s. məğlubiyyətlərindən sonra hələ də "hakimiyyətə iddialıyıq" baxışından çıxış edən Ə.Kərimlini kəskin ifadələrlə tənqid atəşinə tutmuşdu.

"Bu dağıdıcılar 2003-cü ildən siyasətdən çıxıb getməlidirlər. Məğlubiyyətinin səbəblərini analiz etməyən tərəf, məgər vuruşmağını dayandırmamalıdır? Məğlubiyyətin səbəbi "hökumət seçkiləri saxtalaşdırdı" deyib, müzakirədən qaçanların heç 100 ildən sonra da qələbə çalmaq şansları yoxdur" deyən R.Quliyev, həmçinin, Ə.Kərimli ilə yanaşı, C.Həsənlini də nəzərdə tutaraq, "Milli Şura"nı "ölü qurum" adlandırıb, 2013-cü ilin prezident seçkilərindən sonra süqut etdiyini, hazırda isə, məhz AXCP üzərində dayanan təşkilat olmasına da toxunub. O, Bildirib ki, AXCP-dən ibarət olan bu qurumun rəhbərliyi, eləcə də, tərəfdarları ölkədə qarayaxma kampaniyası aparmaqda mahirdirlər: "AXCP sədri Ə.Kərimli daha çox sosial şəbəkələrdə qalmaqal yaradan videoları ilə gündəmə gəlməyə çalışır".

## Digər müxalifət qurumları AXCP-"Milli Şura" cütlüyünün qanunsuz əməllərini, nəinki dəstəkləyir, əksinə, hiddətlə pisləyirlər

Məhz bu ittiham da, belə deməyə zəmin yaradır ki, əslində, Ə.Kərimli siyasi partiya sədrindən daha çox sosial şəbəkə bloqeri kimi fəaliyyət göstərir və bu amil də onun, onsuz da, olmayan nüfuzunu daha dərin dərəyə yuvarladır.

Əslində, eks-spikerin bu cür ittihamlarla çıxış etməsini anlamaq da mümkündür. Çünki, o zamanında, məhz Ə.Kərimliyə maddi yardımlar göndərib, onun siyasi fəaliyyətinə kifayət qədər dəstək olmuşdu. Lakin sonradan özünə qarşı yönəlmiş xəyanətləri anlayaraq, ona qarşı düşmənə çevrilmişdi. Söz yox ki, Ə.Kərimliyə digər müxalifətçi qurumlar da heç bir dəstək göstərmirlər. Bu gün düşərgədə kifayət qədər partiyalar var ki, onlar AXCP-"Milli Şura" cütlüyünün qanunsuz əməllərini, nəinki dəstəkləyir, əksinə, hiddətlə pisləyirlər. Bütün bunlar isə indidən Ə.Kərimlinin və ətrafının ağır məğlubiyyətə düçar olduğunu sübut edir.

*Rövşən NURƏDDİNOĞLU*

# Paşinyan yenə Putinə yalvarır



Paşinyan Putinlə Suriya ermənilərі barədə söhbətinin təfərrüatlarını açıqlayıb. SİA Ermənistana məxsus rusarminfo.ru saytında yayımlanan məlumata istinadən xəbər verir ki, bu açıqlamanı baş nazir Nikol Paşinyan "Kommersant" nəşrinə müsahibəsi zamanı verib. Açıqlamalara görə, Ermənistanın baş naziri Nikol Paşinyan Rusiya prezidenti Vladimir Putinlə Suriyanın şimalında, Türkiyə hərbi əməliyyatının keçirildiyi ərazidə yaşayan ermənilərin təhlükəsizliyinin təmin edilməsi barədə razılaşmalar barədə danışıb.

"Suriyanın şimalında, Kamışlıda təxminən 3 min erməni yaşayır. Mən bu barədə Rusiya prezidenti ilə danışdım. Bir narahatlığımız var idi və Rusiya Prezidentindən xahişim var idi ki, Kamışlıda ermənilərin maraqlarını nəzərə almaq üçün mümkün olan hər şeyi etsin", deyə N.Paşinyan öz müsahibəsində bildirib. Göründüyü kimi, Suriyadakı ermənilərə görə Nikol Paşinyan yenə də Rusiya prezidenti Vladimir Putinə açıq-aşkar yalvarır. Çünki, oradakı hərbi əməliyyatların keçirildiyi ərazilərdə yaşayan ermənilərin taleyini həll etmək, onlara sahib çıxmaq iqtidarında olmadığını hamıdan yaxşı özü bilir.

*İnam Hacıyev*

# Paytaxtda soyğunçuluq edən keçmiş məhkum saxlanılıb



Oktyabrın 28-nə keçən gecə paytaxtın Ə.Əliyev küçəsində Bakı şəhər sakini M.Sadıqovun "Mercedes" markalı avtomobilindən soyğunçuluq yolu ilə 182 manat aparmaqda şübhəli bilinən Şamaxı rayon sakini, əvvəllər məhkum olunmuş C.Ağayev Nərimanov Rayon Polis İdarəsinin 17-ci Polis Şöbəsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, faktla əlaqədar Cinayət Məcəlləsinin 180-ci (soyğunçuluq) maddəsi ilə cinayət işi başlanıb.

# "Nar" Naxçıvanda təqaüd proqramının qaliblərini təbrik etdi!



İnformasiya texnologiyaları sahəsinin inkişafına və bu sahədə yüksək ixtisaslı mütəxəssislərin yetişdirilməsinə xüsusi diqqət ayıran "Nar" mobil operatoru, Naxçıvan Dövlət Universitetinin tələbələri üçün elan etdiyi təqaüd proqramının nəticələrini elan edib. Belə ki, informasiya texnologiyaları və informatika ixtisasları üzrə təhsil alan, xüsusi fərqlənən və təhsildə yaxşı nəticələr göstərən 5 tələbəyə 2019-2020 tədris ilində "Nar" tərəfindən 200 AZN məbləğində aylıq təqaüd ayrılıb.

"Azerfon"un Baş İcraçı direktoru Qunnar Panke təqaüd proqramının qalibləri ilə görüşərək onları təbrik edib və gələcək təhsillərində uğurlar arzulayıb. O bildirib ki, Azərbaycanda gənc nəslin informasiya texnologiyaları sahəsinə marağının artması və karyeralarını bu yöndə qurmaları ölkədə ümumi ekosistemə, xüsusən də telekommunikasiya bazarının inkişafına öz müsbət təsirini göstərəcək. Xatırladaq ki, "Nar" artıq ikinci ildir ki, rabitə sahəsində gələcəyin yerli peşəkarlarının yetişdirilməsinə dəstək məqsədilə Naxçıvanda təhsil alan tələbələr üçün təqaüd proqramı təşkil edir.

"Nar" KSM startegiyası çərçivəsində müxtəlif yaş qruplarından və sosial təbəqələrdən olan şagird və tələbələrin maarifləndirilməsi, dünyagörüşünün artırılması və analitik düşüncə qabiliyyətinin inkişafı istiqamətində bir çox layihələrə imza atıb. "Nar"ın KSM layihələri barədə daha ətraflı məlumatı nar.az səhifəsindən əldə edə bilərsiniz.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97,6%-ni əhatə edir və 8500-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir. 2017-ci ildə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testlərinə əsasən "Nar" şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olub.

TƏRS BAXIŞ

# BİR CİNAYƏTKARIN MİTİNQ HƏYASIZLIĞI

*Tərcümeyi-halı qara ləkəli tülki "siyasətçi" Əli Kərimli*

***Bir "siyasətçi"nin ki, tərcümeyi-halında bu qədər qara ləkələr olsun, onun yenidən mitinq iddiasına düşməsini ancaq həyasızlıq adlandırmaq olar. Bunu düşərgədə baş verən hadisələr də, bir daha sübut edir.***

"Milli Şura"nın rüsvayçı mitinq şousu bitər-bitməz, müxalifət düşərgəsinin bütün üzvləri AXCP sədri Ə.Kərimlini hədəfə alaraq, onu ən sərt şəkildə tənqid və təhqir etməyə başladılar. Əsas səbəb isə Ə.Kərimlinin özünü "birləşmiş müxalifətin lideri" kimi təqdim etməsi olub. Ən maraqlı məqam isə, cinayətlər içində çapalayan Ə.Kərimli hansı üzlə mitinq iddiasına düşüb? Düz sözə nə deyəsən. Həqiqətən də, bu, o Ə.Kərimlidir ki, siyasi karyerası boyunca təmsil olunduğu düşərgədə daim dağıdıcılıq fəaliyyəti ilə tanınıb. Bütün ittifaqları dağıtmağa çalışıb. Faktlar, sübutlar mövcuddur.

## Ə.Kərimlinin son 20-25 ildə müxalifət daxilindəki dağıdıcı məqamları...

Zamanında mərhum Əbülfəz Elçibəy təşkilatına - AXC(P)-yə Kələkidən tam nəzarət edə bilmirdi. Bundan istifadə edən Ə.Kərimlinin "Yurd"laşdırılmış nəzarəti "at oynadırdı". Bundan sonra da Ə.Kərimli müxalifət düşərgəsində birlik təşəbbüslərinə sarsıdıcı zərbələr vurdu. 2000-ci ilin parlament seçkilərində ortaya qoyduğu mövqe, yəqin çoxlarının yaddaşından hələ də silinməyib. Yenə də Müsavatla AXCP-nin seçkiyə "vahid siyahı" ilə getmələri təşəbbüsü Ə.Kərimli tərəfindən "vuruldu". Seçkidən sonra isə müxalifətin tutduğu vahid mövqeyə qarşı çıxmaqla, Ə.Kərimli növbəti missiyasını yerinə yetirmiş oldu. Bu gün Ə.Kərimli kimlərəsə, məsələn, A.Hacılıya, İ.Həmidova və digərlərinə boşuna qucaq açmır. Məşhur bir aforizmdə deyildiyi kimi, onları sevdiyi üçün qucaqlamır, sevmədiyi üçün qucaqlayır. İstəyir bağrına basıb, elə möhkəm sıxsın ki, boğulsunlar...

Bu, bir reallıqdır ki, Əli Kərimlinin yanında olmaq, ona inanmaq, güvənmək minalanmış ərazi ilə yol getmək qədər riskli və təhlükəlidi. Ə.Kərimli bir reallığı anlamalıdır ki, növbəti dəfə özünü "müxalifətin vahid lideri" olaraq təqdim edib və bu vasitəylə onun aldadıcı çağırışlarına inanan müxalifət partiya sədrlərini özündən "asılı" vəziyyətdə olduğunu nümayiş etdirməyə cəhd göstərsə də, artıq müxalifət bu cinayətkarın hansı xislətdə olduğunu bilir. Elə buna görə də, artıq növbəti mitinq keçirəcəklərini də bəyan edən Ə.Kərimlinin bu çağırışlarına müsbət deyil, mənfi rəylər verilməyə başlanılıb. Ə.Kərimli kimilər bilməlidirlər ki, Vətənin halal çörəyinə kəm baxıb, özgənin yalı ilə bəslənənləri tarix heç vaxt bağışlamır.

## Eynulla Fətullayev: "Əli Kərimli müxalifət düşərgəsinin tülküsüdür"



Bu yerdə jurnalist Eynulla Fətullayevin dediyi söz lap yerində deyilib: "Əli Kərimli müxalifət düşərgəsinin tülküsüdür. Bütün tülkü və xəyanətkar siyasəti ilə".

Bu gün bu tülkü siyasətçi, cinayətkar Ə.Kərimli ilə bağlı xarici qüvvələrin göndərdiyi maliyyə ilə ölkədə təxribatlar törətmək istəyi faktları sübuta yetirildiyi bir halda, onun utanmadan mitinq iddiasına düşməsi, bir daha AXCP sədrinin erməniliyini və tülkülüyünü təsdiqləyir. Ən maraqlısı isə budur ki, bu cinayətkar Ə.Kərimli elə zənn edir ki, "Məhsul" adını daşıyın stadionda bəlkə bu dəfə mitinqləri "məhsuldar" olacaq: "AXCP sədri heç vaxt adam olmayıb, olmayacaq da. Cinayətkar, əxlaqsız, erməni nökəri Əli Kərimlinin "bəlkə də qaytardılar" xülyası bir daha baş tutmayacavq. Bunu bilə-bilə, mitinqdən başqa, siyasi mübarizə üsulu tanımır. Bir dənə sözləri var ki, hakimiyyətə gələk. O da, heç vaxt mümkün olmayacaq".

Azərbaycanın bu uğurlardan qısqanclıq hissi keçirən, hətta alışıb - yanan Əli Kərimli kimi əxlaqsız və satqınlar anti-Azərbaycan qüvvələrin əlində alətə çevrilərək, onların çirkli pulları hesabına ölkə daxilində qarşıdurma, hakimiyyətlə xalq arasında süni narazılıqlar yaratmağa cəhd edir, ikrah doğuran vasitələrlə respublikamızın getdikcə artan reytinqinə xələl gətirmək istəyirlər. Təbii ki, belə xəyanətkarlar öz məkrli niyyətlərinə nail ola bilmirlər. Çünki xalq, xüsusilə, gənc nəsil ölkəmizdə demokratik proseslərin inkişafını yüksək dəyərləndirir və bu şəraiti yaradan, Azərbaycanın beynəlxalq aləmdəki mövqelərini getdikcə möhkəmləndirən Azərbaycan dövlət başçısının siyasi xəttini dəstəklədiklərini bəyan edirlər.

## Düz 30 dəfə saxtakarlıq!

Ə.Kərimli saxtakarlığı sonsuzdur. Bu faktlara daima diqqət yetirmək, dönə-dönə vurğulamaq lazımdır. Baxın: Moskvadan hər ay "Milli Şura" və AXCP adlı qurumlara nə az, nə çox - 412 min dollar vəsait daxil olub. "Milli Demokratiya İnstitutu" tərəfindən ayrılmış 140 min dollar, Avropa İttifaqı Nümayəndəliyi Demokratiya və İnsan Hüquqları üzrə Avropa Aləti və Qeyri-Dövlət İştirakçıları (QDİ) proqramları çərçivəsində 9 milyon manata yaxın vəsait, Avropa Komissiyasının xəttilə ayrılan 2,7 milyon avro, ABŞ-ın Azərbaycandakı səfirliyindən 15322 dollar, Dünya Bankından 10500 dollar, "Revenue Watch Institute" (ABŞ) 30000 dollar, "Asiya İnkişaf Bankı" üzrə QHT Forumundan 4720 dollar, ABŞ-ın Demokratiyaya Milli Dəstək Fondundan (NED) 40250 dollar, Böyük Britaniyanın Azərbaycandakı səfirliyindən 5000 funt sterlinq, Açıq Cəmiyyət İnstitutu - Yardım Fondundan 19615 dollar, yenə də NED-dən 42796 dollar, ABŞ-ın "Kounterpart İnterneşnl" Beynəlxalq Humanitar Təşkilatının Azərbaycandakı nümayəndəliyindən 29448 manat, ümumilikdə isə, iki ildə 210.000 dollar, ABŞ-ın Marşal Fondundan (GMF) 21800 dollar, Avropa İttifaqının 120374 avro, 250 min avro isə əldə olaraq.

Bu vəsaitin 60 %-i, yəni 500 min dollara yaxını birbaşa Ə.Kərimlinin şəxsi büdcəsinə daxil olub. Məhz bu faktlardan sonra Ə.Kərimli, görəsən, hansı "üzlə" mitinq çağırışı edir? Yeri glmişkən, biz bu sıralamaya Ə.Kərimlinin mühacir biznesindən və digər qaranlıq sahələrdən əldə etdiyi gəlirləri də əlavə etsək, daha çox milyonluq rəqəmlərin şahidlərinə çevrilmiş olarıq. Belə olan halda, AXCP sədri və onun baş trolları dövlət maraqlarını, milli maraqları anti-Azərbaycan siyasi dairələrinə və həmin dairələrə pul buraxan erməni lobbisinə görə məmnuniyyətlə satırlar. Buna isə DÖVLƏTƏ XƏYANƏT adından başqa heç bir ad vermək olmaz.

Bu, həqiqətən də, belədir. Vətən xainlərinin torpağına, elinə- obasına ermənidən betər qənim kəsilən namərdlər heç vaxt kişi sayılmayıb. Ancaq xalqın nifrətinə məruz qalıblar. Bax, bu marginallar unudurlar ki, anti-Azərbaycan dairələrin qrant paylayan üfunətli ofislərinin mərmər döşəmələri üstündə gəzib özgə yalı ilə yallanmaqla, heç nəyə nail ola bilməyəcklər. Və Ə.Kərimlililər bilməlidirlər ki, Vətənin halal çörəyinə kəm baxıb, özgənin (həm də düşmənin) yalı ilə bəslənənləri tarix heç vaxt bağışlamır.

**Rəfiqə HÜSEYNOVA**

---



## Qələbə əzmi bu "qüvvələrin" kələyini kəsib

RƏFİQƏ

***Kifayət qədər sübuta yetirilib ki, Azərbaycan, sözün əsl mənasında, qalib ölkədir, güclü dövlətdir, güclü olduğu qədər də alternativsiz LİDERİ olan ölkədir və Azərbaycan bütün qələbələrə layiqdir və qadirdir! Xüsusilə də, son 16 il ərzində əldə olunan böyük və tarixi nailiyyətlər deyilənlərin sübutudur, Azərbaycan dövlətinin təntənəsidir.***

Son günlər mötəbər tədbirlərə Azərbaycanın ev sahibliyi etməsi, bu tədbirlərdə bir daha ölkəmizin, ölkəmizin rəhbərinin güclü siyasət yürütməsi və ən böyük - 120-dən çox ölkəni özündə birləşdirən siyasi nüfuzu çox böyük olan Qoşulmama Hərəkatının Zirvə Toplantısında Azərbaycanı dəstəkləyərək, Ermənistanın işğalçı dövlət kimi qəbul edilməsi, bəli, Azərbaycanın böyük diplomatik uğurudur!!!

Ancaq bu gün bu qələbə əzmini həzm edə bilməyən "Milli Şura" kimi ölü quruma toplaşan satqın və bambılıların, əxlaqsızların kələyi yaman kəsilib. Son günlər erməni üfunəti verən boğazına və çənəsinə yaman güc verən AXCP sədri Ə.Kərimli dəridən-qabıqdan çıxaraq, sosial şəbəkələrdən noyabrın 2-də icazəsiz mitinq keçirmək çağırışlarını edir. Bundan əvvəl də çağırışlar etdin, ay əxlaqsız, nə əldə etdin? Belə mənəviyyatsızlara ancaq layiq olduqları cavabı vermək lazımdır. Niyə bu gəncləri bədbəxt edirsən? Sənin kiçük, əxlaqsız oğlun Türkel satqınçılıqla əldə etdiyin qrantlarla Avropa ölkələrində əxlaqsızlıqla məşğul olur, sən isə burdakı gəncləri əyri yoluna dəvət edirsən.

Artıq Ə.Kərimli başa düşür ki, gün keçdikcə onun siyasi karyerasının perspektivləri daha da acınacaqlı olur. Ona görə də, xarici mərkəz və təşkilatları maraqlandırmaq üçün ona ölkədəki vəziyyəti destabilizə etmək lazım idi. Onu gülünc obyektinə çevrilmək perspektivi qətiyyən narahat etmir və o, hər dəfə daha böyük səylə öz qəzəbli gücsüzlüyünü göstərməyə çalışır. Və başa düşmür ki, Azərbaycan cəmiyyəti onu çoxdan ciddi qəbul etmir. Bu səbəbdən də Ə.Kərimli, nəyin bahasına olursa-olsun, üzdə qalmaq və imkan yarandıqca, öz mövcudluğunu nümayiş etdirmək istəyir.

Ə.Kərimli anlamalıdır ki, cəmiyyətin belə perspektivsiz, mənasız və məzmunsuz mitinqlərə heç bir ehtiyacı yoxdur. Belələri bilməlidirlər ki, Vətənin halal çörəyinə kəm baxıb, özgənin, həm də düşmənin yalı ilə bəslənənləri tarix heç vaxt bağışlamır. Çünki sizin kimi satqınların qatarı çoxdan gedib... Və keçirəcəyiniz o mitinq şouların da meymunluq eləməyiniz özünüzə qalacaq.

Əldə edilən hər bir nailiyyətin arxasında faktlar, əsaslar, danılmaz həqiqətlər dayanır və Ə.Kərimli və özü kimi əxlaqsızlara kifayət qədər pul-para buraxan erməni lobbisi, o cümlədən, sapı özümüzdən olan tiyələri kor baltalar da, yəqin ediblər ki, onların qərəz, şantajlar üzərində etdikləri var-gəlləri nəticəsiz qalacaq. Çünki Azərbaycanın qələbə əzmi çoxdan bu "qüvvələrin" kələyini kökündən kəsib.

**RƏFİQƏ**

---

## Evdən, mağazadan və avtomobillərdən oğurluq edənlər tutulub

Daxili işlər orqanlarının əməkdaşları oğurluqla məşğul olan şəxslərin tutulması istiqamətində uğurlu əməliyyat tədbirlərini davam etdirirlər. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Sabunçu Rayon Polis İdarəsinin 13-cü polis bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində oktyabrın 25-də Bakıxanov qəsəbəsindəki evlərin birindən 1800 manat pul və 2000 manat dəyərində qızıl-zinət əşyaları oğurlamaqda şübhəli bilinən Xızı rayon sakini N.Ellazova saxlanılıb.

Nizami Rayon Polis İdarəsinin 23-cü polis bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində oktyabrın 26-da rayonda iki avtomobildən pul, səsgücləndiricilər və akkumulyator oğurlamaqda şübhəli bilinən İsmayıllı rayon sakini E.Balayev yaxalanıb. Binəqədi Rayon Polis İdarəsinin 43-cü polis bölməsi əməkdaşları isə oktyabrın 7-də Binəqədi qəsəbəsindəki mağazaların birindən Bakı sakini A.Məhərrəmovanın içərisində 374 manat pul, sənəd və geyim əşyaları olan çantasını oğurlamaqda şübhəli bilinən paytaxt sakini, əvvəllər məhkum olunmuş R.Yenaliyevi tutublar. Hər üç faktla bağlı araşdırmalar davam etdirilir.

---

## Yasamalda piyadanı vurub hadisə yerindən qaçan sürücü tutulub



Oktyabrın 27-də saat 22 radələrində Yasamal rayonunun A.M.Şərifzadə küçəsində yolu keçən Bakı şəhər sakini E.Əşrəfzadə naməlum avtomobillə vurulub. Piyada xəsarətlə xəstəxanaya yerləşdirilib. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, xəsarətlə nəticələnmiş yol-nəqliyyat hadisəsini törədərək hadisə yerindən yayınmaqda şübhəli bilinən "Runna" markalı avtomobilin sürücüsü, Bakı şəhər sakini E.Əlpənahov Bakı Şəhər Baş Polis İdarəsinin Təhlükəsiz Şəhər Xidməti və Yasamal Rayon Polis İdarəsinin 28-ci polis bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində saxlanılıb. Hadisə ilə bağlı araşdırma aparılır.

# Azərbaycanda Müvəkkilliyin sağlamlıq və təhsil huququnun müdafiəsində rolu

***Müvəkkil ötən dövrlərdə dərman preparatlarının qiymətlərinin əhalinin böyük hissəsi, xüsusilə, aztəminatlı təbəqələrdən olan şəxslər üçün əlçatarlığının təmin olunmasını təklif etmişdir. Bu baxımdan, ölkə Prezidentinin göstərişinə əsasən, Tarif (qiymət) Şurası tərəfindən çoxsaylı dərman vasitələrinin, o cümlədən, ilk mərhələdə həyati vacib və daha çox tələbat olan preparatların qiymətlərinin tənzimlənməsi təqdirəlayiqdir.***

Ərizələrlə bağlı araşdırma zamanı Müvəkkilin aidiyyəti üzrə müraciətlərindən sonra əksər vətəndaşların müayinə və müalicəsi ilə bağlı məsələlər də həll edilmişdir.

Ürək xəstəlikləri, o cümlədən, ürək qüsuru ilə bağlı xəstəlikləri olan, gözlərinin dövlət hesabına müalicə olunmasında köməklik göstərilməsi xahişi ilə müraciət edən, dayaq-hərəkət sistemində problemləri olan bir çox şəxslərin müraciətləri nəzərə alınaraq, Müvəkkilin aidiyyəti üzrə müraciətindən sonra onlar müayinə və müalicə məsələsinin təşkili üçün aidiyyəti klinikalara göndərilmiş və lazımi yardım almışlar.

Müvəkkilin Səhiyyə Nazirliyinə müraciətlərindən sonra bir sıra xəstələrlə bağlı sənədlərə müvafiq rəy verilməsi üçün nazirliyin "Vətəndaşların respublikadan kənar müalicəyə göndərilməsi məsələləri üzrə komissiyası"na və yüksək ixtisaslı mütəxəssislərdən ibarət xüsusi komissiyaya, habelə, uroloji, ürək və viruslu hepatit xəstəliklərinin müalicəsinin təşkili üzrə komissiyalara göndərilmişdir.

Bəzi şikayətlərdə özəl tibb müəssisələrində müalicə və müayinənin təşkilində yol verilmiş ciddi pozuntular, qiymətlərin çox baha olması, müalicənin nəticəsiz qalması, həmçinin, dövlət tibb müəssisələrində həkimlərin laqeydliyi, tibbi heyətin pasiyentlərə münasibətdə qeyri-etik davranışı, həkimlərin xəstə qarşısında məsuliyyət hissinin olmaması, tibbi göstərişdən asılı olmayaraq, xəstələrin ən müxtəlif laborator və diaqnostik müayinələrə məruz qoyulması, onların qazanc mənbəyinə çevrilməsi, tibbi xidmətin keyfiyyətinin zəruri səviyyədə olmaması halları da şikayətlərdə öz əksini tapmışdır.

Uşaqların müxtəlif qüsurlarla dünyaya gəlməsinin qarşısını almaq məqsədilə, doğum evlərinin analar üçün əlçatarlığının təmin olunması, tamamilə qadınların xüsusi ehtiyac duyulan patronaj xidmətinin bərpa edilməsi, perinatal müayinələrin aparılması ana və uşaq ölümünün azalmasına, qüsurlu körpələrin doğulmalarının qarşısının alınmasına imkan verərdi.

Ağır dərəcəli və total eşitmə azlığı olan uşaqlarda vaxtında koxlear implantasiya (daxili qulağın protezlənməsi) əməliyyatının aparılması və onların kompleks reabilitasiyası uşaqlar arasında lal-karlığın, beləliklə, gələcəkdə potensial əlillərin sayının artmasının qarşısını ala bilər. Odur ki, 2012-ci ildən etibarən, illik məruzələrində həmin məsələyə xüsusi diqqət ayıran Müvəkkil dövlət büdcəsinin imkan verdiyi həddə bu məqsədlər üçün vəsaitin ayrılmasını olduqca zəruri hesab edir. Yeri gəlmişkən, artıq Səhiyyə Nazirliyi tərəfindən "Koxlear implantasiya əməliyyatlarının aparılmasına ehtiyacı olan uşaqların qeydiyyatının aparılması, seçilməsi, müayinə və müalicəsi üzrə Komissiya" yaradılmış və fəaliyyətə başlamışdır.

Müvəkkil həkim-xəstə münasibətlərinə ciddi yanaşılmasını, xüsusən, həkim müalicəsindən ziyan çəkən pasiyentlərin hüquqlarının təmin edilməsi üzrə yeni qanunvericilik aktlarının qəbul edilməsini, müalicə prosesində qarşılıqlı vəzifələri müəyyən edən müqaviləli sistemə keçidi zəruri hesab edir. Bu baxımdan, "Pasiyentlərin hüquqlarının müdafiəsi haqqında" qanunun qəbul edilməsi sürətləndirilməlidir.

Hemofiliyalı və talassemiyalı xəstələrə tibbi yardım təkmilləşdirilmiş, onların ömürlərinin uzadılması və həyat keyfiyyətinin yaxşılaşdırılmasına nail olunmuş, bu xəstəlikdə əlillik və ölüm halları azalmış, belə şəxslərin hüquqlarının müdafiəsi və sosial vəziyyətlərinin yaxşılaşdırılması daim diqqət mərkəzində saxlanılmışdır. Heydər Əliyev Fondunun təşəbbüsü ilə Respublika Talassemiya Mərkəzinin yaradılması nəticəsində, həmin xəstələrin müalicəsinin müasir səviyyədə təşkili mümkün olmuşdur.

Əhali arasında talassemiyanın profilaktikası istiqamətində kompleks tədbirlər görülməsi məqsədi ilə maarifləndirmə, sosial səfərbərlik tədbirləri, xüsusən, risk qruplarını müəyyən etmək üçün nikaha daxil olmaq istəyən şəxslərin əvvəlcədən tibbi müayinədən keçmələri kimi tədbirlərə ehtiyac vardır.

Qan xəstəliklərinin erkən müayinə və müalicəsini təmin etmək üçün DNK müayinələrinin aparılması məqsədi ilə Tibbi-Genetik Laboratoriyanın yaradılması zəruridir.

Ailə Məcəlləsinə əsasən, nikaha daxil olan şəxslər tibbi müayinədən keçmələri haqqında Ədliyyə Nazirliyinin qeydiyyat orqanlarına arayış təqdim etməlidirlər. Nikaha daxil olan şəxslərin tibbi müayinəsi, ailə planlaşdırılması məsələləri üzrə məsləhət verilməsi tibb müəssisələrində pulsuz həyata keçirilməlidir.

Yeni evlənənlərin tibbi müayinədən keçmələri sayəsində gənclərə nikahdan qabaq yaranmış bir çox xəstəliklərin qarşısının alınmasında əhəmiyyətini, o cümlədən, irsi qan xəstəliklərinin erkən diaqnostikasının vacibliyini nəzərə alaraq, ölkəmizdə yeni evlənənlərin genetik müayinədən keçməsi, xəstə dölün vaxtında aşkar olunması məqsədilə prenatal diaqnostikanın təşkili üçün tibbi-genetik laboratoriyanın yaradılmasının vacibliyinə diqqəti yönəldən Müvəkkil tibb universiteti tələbələri arasında "Genetika" ixtisasına yiyələnənlərin sayının artırılmasına yönəldilmiş tədbirlərin sürətləndirilməsi təklifi ilə Səhiyyə Nazirliyinə müraciət etmişdir.

Daun sindromu səbəbindən sağlamlıq imkanları məhdud uşaqların hüquqlarının müdafiəsində diqqətdə saxlanılmışdır.

Heydər Əliyev Fondunun təşəbbüsü ilə Daun Sindromlu Şəxslərin Reabilitasiya Mərkəzinin inşa edilməsi və müasir avadanlıqla təchiz olunması bu sahədə böyük addımdır.

Autizm sindromlu uşaqların məktəbəqədər, ibtidai və orta təhsil almaları üçün müvafiq təhsil müəssisələri, ixtisaslaşdırılmış reabilitasiya-inkişaf mərkəzləri, ixtisaslı və peşəkar kadrlar məhdud olduğundan, təlim-tərbiyə və reabilitasiya işinin təşkilindəki ciddi çətinlikləri nəzərə alan Müvəkkil belə uşaqlar üçün müasir tipli reabilitasiya-inkişaf və tədris mərkəzlərinin yaradılmasını da təklif etmişdir. "Autizm sindromlu şəxslərə dövlət qayğısı haqqında" Qanunun və bu sahədə müvafiq Dövlət Proqramının layihələrinin hazırlanaraq qəbul edilməsi Müvəkkil tərəfindən də dəstəklənmiş və bu istiqamətdə zəruri təkliflər irəli sürülmüşdür.

Milli Məclisin Sosial Siyasət Komitəsinin təşkilatçılığı ilə "Autizm sindromlu şəxslərin sosial müdafiəsi" mözusunda dinləmələrin keçirilməsi bu sahədə müvafiq normativ-hüquqi bazanın formalaşdırılması isliqamətində atılmış addım kimi təqdirəlayiqdir.

Monitoriqlərin nəticələri və müraciətlərin təhlili göstərir ki, hemodializə ehtiyacı olan insanların sayının ilbəil artan dinamikası bu sahəyə ehtiyaca uyğun olaraq, əlavə büdcə ayırmaları tələb edir. Bununla bağlı Dövlət Proqramı qəbul edilsə də, çoxsaylı müraciətlər davam etməkdədir.

Sürətlə artmaqda olan İİV/QİÇS və narkomaniyanın qarşısını almaq məqsədilə vətəndaş cəmiyyəti təsisatları da cəlb edilməklə xüsusi proqramların hazırlanması, profilaktik tədbirlərin və maarifləndirmə işinin aparılması, o cümlədən, bundan əziyyət çəkən məhkumların xüsusi müəssisələrdə müalicəyə cəlb edilməsi məqsədəuyğundur.

> Yeni evlənənlərin tibbi müayinədən keçmələri sayəsində gənclərə nikahdan qabaq yaranmış bir çox xəstəliklərin qarşısının alınmasında əhəmiyyətini, o cümlədən, irsi qan xəstəliklərinin erkən diaqnostikasının vacibliyini nəzərə alaraq, ölkəmizdə yeni evlənənlərin genetik müayinədən keçməsi, xəstə dölün vaxtında aşkar olunması məqsədilə prenatal diaqnostikanın təşkili üçün tibbi-genetik laboratoriyanın yaradılmasının vacibliyinə diqqəti yönəldən Müvəkkil tibb universiteti tələbələri arasında "Genetika" ixtisasına yiyələnənlərin sayının artırılmasına yönəldilmiş tədbirlərin sürətləndirilməsi təklifi ilə Səhiyyə Nazirliyinə müraciət etmişdir

**VAHİD ÖMƏROV,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 30 oktyabr


## İngilis musiqiçi 250 min funt qiyməti olan antikvar skripkanı qatarda unudub



Britaniyalı musiqiçi Stiven Morris qiyməti 250 min funt sterlinq olan antikvar skripkanı unudaraq London-Orpinqton elektrik qatarında qoyub. The Guardian nəşrinin yazdığına görə, 1709-cu ildə Devid Tekçler tərəfindən hazırlanmış skripka içərisində ustanın ad-familiyasının yazıldığı ağ futlyarda olub. Musiqiçi bu barədə nəqliyyat polisinin zabitinə məlumat verib. Polislər dərhal videomüşahidə kameralarının görüntülərinə baxmağa başlayıblar. Lakin hələlik musiqi alətini tapmaq mümkün olmayıb. Stiven Morris Böyük Britaniyanın bir neçə musiqi kollektivinə rəhbərlik edib. Həmçinin Kral filarmoniyası orkestrinin solisti olub. "Mən bu nadir alətin mühafizəçisi idim və onu digər skripkaçıya ötürməyə ümid edirdim. İndi elə bil mənim əllərimi kəsiblər", - Morris hadisədən sonra belə deyib.

## Cənubi Koreya Prezidentinin anası 92 yaşında vəfat edib



Cənubi Koreyanın Prezidenti Mun Ce-inin anası Kanq Han-ok uzun sürən xəstəlikdən 92 yaşında vəfat edib. Bu barədə Prezident Ofisi məlumat yayıb. Xanım Kanq Han-ok Busan şəhərindəki xəstəxanada dünyasını dəyişib. Bildirilir ki, Cənubi Koreya dövlət başçısının anası bir neçə il idi xəstəlikdən əziyyət çəkirdi. Xəstəliyi son günlər xeyli ağırlaşan xanım Kanq Han-ok həkim nəzarətində idi. Məlumata əsasən, Mun Ce-in anasının dəfn mərasimini onun vəsiyyətinə uyğun olaraq sadə şəkildə keçirməyi planlaşdırıb.

## Bərdə sakininin evindən narkotik vasitələr götürülüb

Daxili işlər orqanlarının əməkdaşları narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olan şəxslərin müəyyənləşdirilərək məsuliyyətə cəlb olunmaları istiqamətində növbəti uğurlu əməliyyat tədbiri keçiriblər. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Baş Narkotiklərlə Mübarizə İdarəsinin Qərb Bölgəsində Regional Şöbəsi və Bərdə Rayon Polis Şöbəsi əməkdaşlarının daxil olmuş məlumat əsasında keçirdikləri birgə əməliyyat-axtarış tədbirləri nəticəsində Bərdə şəhər sakini Ş.Əzizovanın evindən 75 qramdan artıq heroin, tiryək, marixuana, 50 qramdan artıq metamfetamin, 45 ədəd metadon, 16 ədəd ekstazi həbi, həmçinin tiryək və marixuana aşkar edilərək götürülüb. Faktla bağlı araşdırma aparılır.

## Evdən, mağazadan və avtomobillərdən oğurluq edənlər tutulub

Daxili işlər orqanlarının əməkdaşları oğurluqla məşğul olan şəxslərin tutulması istiqamətində uğurlu əməliyyat tədbirlərini davam etdirirlər. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Sabunçu Rayon Polis İdarəsinin 13-cü polis bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində oktyabrın 25-də Bakıxanov qəsəbəsindəki evlərin birindən 1800 manat pul və 2000 manat dəyərində qızıl-zinət əşyaları oğurlamaqda şübhəli bilinən Xızı rayon sakini N.Ellazova saxlanılıb.

Nizami Rayon Polis İdarəsinin 23-cü polis bölməsi əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində oktyabrın 26-da rayonda iki avtomobildən pul, səsgücləndiricilər və akkumulyator oğurlamaqda şübhəli bilinən İsmayıllı rayon sakini E.Balayev yaxalanıb.

Binəqədi Rayon Polis İdarəsinin 43-cü polis bölməsi əməkdaşları isə oktyabrın 7-də Binəqədi qəsəbəsindəki mağazaların birindən Bakı sakini A.Məhərrəmovanın içərisində 374 manat pul, sənəd və geyim əşyaları olan çantasını oğurlamaqda şübhəli bilinən paytaxt sakini, əvvəllər məhkum olunmuş R.Yenaliyevi tutublar. Hər üç faktla bağlı araşdırmalar davam etdirilir.

## ELAN

Dövlət Əmlak Komitəsi yanında Daşınmaz Əmlakın Dövlət Reystri tərəfindən Bədirov Tofiq Ehtac oğlunun adına verilmiş ÇIXARIŞ itdiyi üçün etibarsız sayılır.

## YAP Binəqədi rayon təşkilatında "Psixologiya gənclərin gözü ilə" adlı layihə həyata keçirilib



YAP Binəqədi rayon təşkilatında rayon təşkilatının gənc fəalı, Bakı Dövlət Universitetinin Psixologiya ixtisasının SABAH qrupları üzrə III kurs tələbəsi Nəzrin İmanovanın "Psixologiya gənclərin gözü ilə" adlı layihəsinin "Motivasiya" adlı təqdimatı həyata keçirilib.

Layihənin rəsmi hissəsində çıxış edən Nəzrin İmanova layihəsinin təqdimatına yaradılan şəraitə görə, YAP Binəqədi rayon təşkilatının rəhbərliyinə təşəkkürünü bildirib.

Tədbirdə çıxış edən YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov rayon təşkilatının gənclərin layihələrinə və təkliflərinə hər zaman dəstək verməyə



hazır olduğunu bildirib. Qeyd edib ki, yetişən və yetişməkdə olan gənclik öz savadı, intellektual potensialı və təşəbbüskarlığı ilə seçilir: "Təbii ki, bu göstəricilər bizləri sevindirir və gələcəyimizin etibarlı əllərdə olması inamını daha da gücləndirir. Bu gün YAP Binəqədi rayon təşkilatının gənc fəalı Nəzrin İmanovanın təhsil aldığı psixologiya ixtisası üzrə gənc psixoloqlara təqdim etdiyi layihəsi və təlimi də, bu baxımdan, olduqca əhəmiyyətlidir".

BDU-nun SABAH qrupları üzrə dekan müavini Gündüz Camalzadə çıxış edərək, Nəzrin İmanovanın öz fəallığı ilə seçilən tələbələrdən biri olduğunu bildirib. Bu cür təşəbbüs və fəallığına görə onu təbrik edərək, uğurlar arzulayıb.

Tədbirdə çıxış edən Binəqədi rayonu 3 nömrəli tam orta məktəbin tarix müəllimi Kəmalə Həsənova, YAP Binəqədi rayon təşkilatının gənc fəalı İsa Bayramov Nəzrin İmanovaya uğurlar arzulayıb.

Tədbirin rəsmi hissəsi başa çatıqdan sonra gənc fəal Nəzrin İmanova təlim proqramı ilə çıxış edib və gəncləri maraqlandıran sualları cavablandırıb.

**ZÜMRÜD BAYRAMOVA**

## YAP Qobustan rayon təşkilatında görüş keçirilib



Yeni Azərbaycan Partiyası Qobustan rayon təşkilatı ərazi ilk partiya təşkilatlarında görüşləri davam etdirir. Dünən növbəti görüş Qobustan rayon Mədəniyyət və Turizm İdarəsində keçirilib. Iclası giriş sözü ilə açan Yeni Azərbaycan Partiyası Qobustan rayon təşkilatının sədri Füzuli Gülaliyev bildirib ki, 21 sentyabr 2019- cu il tarixdə İsmayıllı şəhərində Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP-ın Sədr müavini-İcra katibi Əli Əhmədovun ərazi ilk partiya təşkilatlarının fəaliyyətlərinin gücləndirilməsindən, gənclərin tərbiyəsi, onların problemlərinin həllinə dəstək və gənclərə dövlət qayğısı yeni və müstəqil Azərbaycan dövlətinin daxili siyasətinin mühüm vəzifələrindən biri olduğunu vurğulamışdı. Qeyd etmişdir ki, Yeni Azərbaycan Partiyası Ümummilli Lider Heydər Əliyev ideyalarının daşıyıcısı, müasir Azərbaycan gəncliyinin güvənc yeridir. Gənclərin mütləq əksəriyyəti Ulu Öndər ideyaları ətrafında sıx birləşərək, sadiqlik nümayiş etdirir. Onlar hər zaman Prezident İlham Əliyevin ətrafında sıx birləşərək, onun həyata keçirdiyi siyasəti dəstəkləyirlər. Füzuli Gülaliyev bildirdi ki, gənclərimiz vətənpərvər olmalı, Vətənə qarşı çıxanlarla barışmaz mübarizə aparmağı bacarmalıdırlar. Təşkilat sədri ölkəmizin siyasi həyatında mühüm yer tutan bələdiyyə seçkilərindən danışdı. O, bütün partiya üzvlərini seçkilərə hazırlıq mərhələlərində və seçki prosesində fəal olmağa çağırdı. Bildirdi ki, bələdiyyə seçkilərilə əlaqədar ölkədə siyasi canlanma müşahidə olunur. O,Yeni Azərbaycan Partiyasının böyük resurslarının və seçki təcrübəsinin olduğunu deyərək, bu seçkilərdə də uğur qazanılacağını əminliyini ifadə edib. İclasda çıxış edən ərazi ilk partiya təşkilatının sədrləti A.Əkbərov, C.Ağaməmmədov və digərləri ölkə Prezidentinin siyasətinin dəstəklənməsində daha aktiv olacaqlarını, təbliğatlarını günün tələbləri səviyyəsində quracaqlarını və ölkəmizə qarşı böhtan xarakterli çıxışlara layiqincə cavab verəcəklərini diqqətə çatdırdı.

***Zümrüd Bayramova***


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**